QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 175 (5163) **27 sentyabr** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Xalq referenduma "HƏ" dedi!

## Azərbaycan Prezidenti İlham Əliyev Bakıdakı 6 saylı seçki məntəqəsində səs verib



**"Referendum bütün məntəqələrdə, bütün dairələrdə Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilib"**



7

**Əli Əhmədov: "Referendum uğurla başa çatdı"**



6

**Əli Həsənov: "Azərbaycanda ciddi islahatlar gözlənilir"**



6

**Azərbaycanın şanlı tarixində yeni və daha demokratik səhifə açılıb!**



10

**Avropa Xalq Partiyası: Ümumxalq səsverməsi Azərbaycan xalqının iradəsini mütləq şəkildə əks etdirdi**



5

**ABŞ-ın "AJF Associates & İNC" təşkilatı referendum günü keçirdiyi "exit poll"un nəticələrini açıqlayıb**



7

15

**Divina Sergio: Azərbaycanda səsvermə hətta İtaliyadakından da intizamlı keçir**



21

**Azərbaycanda "demokrat"ların referendum qorxusu: sildilər, amma alınmadı**



5

**Samir Şərifov: Manat öz ədalətli məzənnəsini tapacaq**



# Azərbaycan Prezidenti İlham Əliyev Bakıdakı 6 saylı seçki məntəqəsində səs verib













***Sentyabrın 26-sı müasir müstəqil Azərbaycan Respublikasının tarixində növbəti ümumxalq səsverməsi (referendum) günü kimi qalacaq.***

Müstəqil Azərbaycan Respublikasının ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk Konstitusiyasının qəbul edilməsindən 21 il keçir. Bu müddət ərzində ölkəmiz böyük inkişaf yolu keçib, geniş hüquqi islahatlar aparılıb və bütün bunlar demokratik vətəndaş cəmiyyəti quruculuğu üçün möhkəm təməl yaradıb. Lakin ölkədə, cəmiyyətdə gedən proseslər zaman-zaman yeni tələblər irəli sürür. Konstitusiya isə elə bir sənəddir ki, o, cəmiyyətlə birlikdə inkişaf etməlidir. Bu baxımdan 2002-ci və 2009-cu illərdə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklərdən sonrakı dövrdə əldə olunmuş uğurlar bu islahatların təsirli və səmərəli olduğunu sübut edib. Hazırda Azərbaycan öz inkişafının elə bir mərhələsinə daxil olub ki, ölkənin Əsas Qanununa müəyyən əlavələr və dəyişikliklər edilməsi zərurətə çevrilib.

Sentyabrın 26-da ümumxalq səsverməsinə çıxarılan Referendum Aktında Konstitusiyanın 23 maddəsinə dəyişikliklər edilməsi və onun altı yeni maddə ilə tamamlanması nəzərdə tutulur. Əlavələr və dəyişikliklər insan haqlarının və azadlıqların müdafiəsini təmin edən əsasların təkmilləşdirilməsini, effektiv və çevik dövlət idarəçiliyi mexanizminin formalaşmasını, həyata keçirilən iqtisadi islahatların səmərəliliyini və ardıcıllığını təmin etmək üçün iqtisadi idarəçilik mexanizminin təkmilləşdirilməsini, qanunverici hakimiyyətin fəaliyyəti ilə bağlı yeni tələblərin müəyyən edilməsini, dövlətin təhlükəsizliyi, cəmiyyətdə sabitlik üçün əlavə təminatlar yaradılmasını nəzərdə tutur. Bütövlükdə dəyişikliklər cəmiyyətin inkişafının müasir mərhələsində onun həyat fəaliyyətinin əsas sahələrini əhatə edir.

AZƏRTAC xəbər verir ki, sentyabrın 26-da səsvermə prosesinin başladığı ilk dəqiqələrdən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi.

Prezident İlham Əliyev seçki məntəqəsinə daxil olub səsvermə bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədilər. Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də səs verdilər.

X X X

Paytaxtın 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində səsvermənin gedişini xarici və yerli müşahidəçilər, qeyri-hökumət təşkilatlarının nümayəndələri izləyiblər.

# Azərbaycan ilə Pakistan arasında münasibətlər yüksək səviyyədə inkişaf edir

## *Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın müdafiə sənayesi nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Pakistan İslam Respublikasının müdafiə sənayesi naziri Rana Tanvir Hussainin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



Pakistanın müdafiə sənayesi nazirinin ölkəmizə səfərinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev pakistanlı nazirin Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirakının önəmini qeyd etdi. Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin Azərbaycana səfərini məmnunluqla xatırlayaraq bu səfəri ölkələrimiz arasında səmimi və qardaşlıq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Pakistanın Baş naziri ilə Davosda keçirdiyi görüşü də məmnunluqla xatırladı. Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında münasibətlərin yüksək səviyyədə olduğunu, ölkələrimizin bir-birilərini bütün beynəlxalq təşkilatlarda daim dəstəklədiklərini vurğulayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə verdiyi dəstəyə görə qardaş ölkəyə minnətdarlığını ifadə etdi. Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın da Pakistanı həmişə Kəşmir məsələsində dəstəklədiyini qeyd edərək Pakistanın ölkəmiz üçün dünyada ən yaxın və böyük dost ölkələrdən biri olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında müdafiə və hərbi sənaye sahəsində əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi. Pakistan İslam Respublikasının müdafiə sənayesi naziri Rana Tanvir Hussain yenidən ölkəmizə səfər etməsindən məmnunluğunu bildirdi. Rana Tanvir Hussain Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin adından Prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi. O, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin Prezident İlham Əliyevə olan yüksək ehtiramını məmnunluqla qeyd etdi. Prezident Ilham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin dəvətini minnətdarlıqla qəbul etdi.



# Prezident İlham Əliyev Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavinini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini, MDB Parlamentlərarası Assambleyasının müşahidə missiyasının rəhbəri İlyas Umaxanovu qəbul edib. AZƏRTAC xəbər verir ki, İlyas Umaxanov Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasını və Dövlət Dumasını, eləcə də altı ölkəni təmsil edən nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini vurğuladı. İlyas Umaxanov başçılıq etdiyi missiyanın Azərbaycanın müxtəlif regionlarında müşahidələr aparacağını dedi. O, referendumun yüksək standartlara uyğun şəkildə təşkil olunmasından məmnunluğunu ifadə etdi.***

Prezident İlham Əliyev Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanovun rəhbərliyi ilə MDB Parlamentlərarası Assambleyasının müşahidə missiyasının ölkəmizə səfərinin önəmini vurğuladı. Dövlətimizin başçısı referendumun şəffaf keçirilməsi üçün bütün lazımi şəraitin yaradıldığını bildirdi. Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev AŞPA-nın Referendumu Dəyərləndirmə Missiyasını qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Aleksandr Nikoloskinin rəhbərlik etdiyi və AŞPA-nın Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak və Sezar Florin Predanın daxil olduqları Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasını qəbul edib.***



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı sentyabrın 26-da Azərbaycan Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə keçiriləcək referendumla bağlı Azərbaycan hökumətinin maksimum şəffaflığın təmin edilməsi üçün işlər gördüyünü bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan xalqı azad şəkildə öz iradəsini ifadə edəcək və bunun üçün bütün tədbirlər görülüb. Dövlətimizin başçısı Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasının ölkəmizə böyük nümayəndə heyəti ilə səfər etməsinin əhəmiyyətini vurğulayaraq Azərbaycanın Avropa Şurasının çox fəal üzvü olduğunu, 15 ildən artıq müddətdə bu təşkilatla tarixi əməkdaşlıq həyata keçirdiyini məmnunluqla qeyd etdi. Azərbaycan Prezidenti bildirdi ki, bu illər ölkəmiz üçün inkişaf, müasirlik və transformasiya baxımından əhəmiyyətli illər olub. Prezident İlham Əliyev ölkəmizin Avropa təsisatları ilə müxtəlif formatlarda sıx əməkdaşlıq etdiyini vurğuladı. Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasının rəhbəri Aleksandr Nikoloski başçılıq etdiyi nümayəndə heyətinə müxtəlif siyasi qrupların daxil olduğunu dedi. Aleksandr Nikoloski referendumu müşahidə etmələri üçün yaradılan şəraitə görə Azərbaycan rəhbərliyinə, Azərbaycan parlamentinə minnətdarlığını bildirdi. O, referendumun keçirilməsi üçün bütün lazımi şəraitin yaradıldığını dedi və qeyd etdi ki, Azərbaycan Avropa Şurası üçün çox önəmli ölkədir. Görüşdə Azərbaycanla Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan Cənubi Qafqazda Belarusun güvəndiyi dost ölkədir

*Azərbaycan Prezidenti İlham Əliyev Belarusun müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Belarus Respublikasının müdafiə naziri Andrey Ravkovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Belarus müdafiə nazirinin Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün böyük nümayəndə heyəti ilə Bakıya səfərinin önəmini vurğuladı.***



Ölkələrimiz arasında hərbi əməkdaşlığın bir çox illərdir ki, uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu sahədə əlaqələrimizin razılıq doğurduğunu bildirdi. Dövlətimizin başçısı bunu Azərbaycan ilə Belarus arasında yüksək səviyyəli etimadın göstəricisi, ölkələrimizin iqtisadi, siyasi, hərbi və digər sahələrdə çoxplanlı əməkdaşlığa əsaslanmasının yaxşı təzahürü kimi dəyərləndirdi. Son illər Belarusdan alınan texnikanın çox yüksək standartlara cavab verdiyini deyən dövlətimizin başçısı bu barədə Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşü zamanı da danışdıqlarını, azərbaycanlı mütəxəssislərin də bu texnikaların yüksək keyfiyyətindən və etibarlılığından razı qaldıqlarını qeyd etdi. Prezident İlham Əliyev bütün bunları Belarusun hərbi-texniki sahədə əldə etdiyi böyük uğurların göstəricisi kimi dəyərləndirdi. Ölkələrimiz arasında tarixən əlaqələrin mövcud olduğunu qeyd edən dövlətimizin başçısı əməkdaşlığımızın gələcək inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan Beynəlxalq müdafiə sərgisində Belarus hərbi texnikasının nümayiş etdirilməsinin ölkəmizin bu sahədəki yeniliklərlə tanış olması və birgə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından önəmini qeyd etdi. Belarus müdafiə nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsinə xidmət etdiyini deyən dövlətimizin başçısı səfərin əməkdaşlığımızın gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını söylədi.

Belarus Respublikasının müdafiə naziri Andrey Ravkov dedi: "Mən sizə - Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun böyük dostu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Azərbaycan xalqına salamlarını çatdırmaq istəyirəm".

Belarus Respublikasının müdafiə naziri ölkəsinin Prezidentinin daim söylədiyi sözləri xatırlayaraq bildirdi ki, Azərbaycan Cənubi Qafqazda Belarusun güvəndiyi dost ölkədir, Belarus isə Azərbaycan üçün Avropanın mərkəzində etibarlı dost və dayaq ola biləcək ölkədir. Ölkəsinin çətin bir dövründə Azərbaycanın Belarusa dəstək verdiyini vurğulayan Andrey Ravkov buna görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Ölkəmizə səfərinin Azərbaycan üçün əhəmiyyətli bir günə təsadüf etdiyini vurğulayan Andrey Ravkov keçirilən referendumu mühüm hadisə kimi dəyərləndirdi. Prezident İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.



## Prezident İlham Əliyev Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının prezidenti, AŞPA-nın fəxri üzvü Goris Emiel Stefaanın başçılıq etdiyi, Malta parlamentinin spikeri, Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyası müşahidə missiyasının rəhbəri Farrugia Angelonun, eləcə də Malta, Serbiya, İtaliya, Fransa, Monteneqro, Bosniya və Herseqovina, Rumıniya parlamentlərinin deputatlarının və Avropa Şurası Parlament Assambleyasının üzvlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyası kimi önəmli bir qurumu təmsil edən qonağın böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etməsindən və referendumun monitorinqi prosesində iştirakından məmnunluğunu ifadə etdi. Referendum zamanı müşahidələr aparmaq üçün 30-dan çox dövlətdən, həmçinin mühüm beynəlxalq təşkilatlardan çoxlu sayda müşahidəçilərin Azərbaycana gəldiyini vurğulayan Prezident İlham Əliyev onların səsvermənin gedişini izləmələrinin önəmini qeyd etdi. Dövlətimizin başçısı səsverməyə çıxarılan hər bir məsələ ilə bağlı ayrılmış müddət ərzində əhali arasında maarifləndirmə işlərinin aparıldığını, referendumun yüksək səviyyədə təşkil olunması istiqamətində bütün lazımi tədbirlərin görüldüyünü bildirdi. Prezident İlham Əliyev Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının təkcə Bakıda deyil, bölgələrdə də müşahidələr aparmasının əhəmiyyətini qeyd etdi.

Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının prezidenti, AŞPA-nın fəxri üzvü Goris Emiel Stefaan səhər saatlarından başlayaraq missiya nümayəndələrinin ayrı-ayrı məntəqələrdə müşahidələr apardıqlarını qeyd etdi. Görüşdən sonra missiyalarını davam etdirəcəklərini deyən Goris Emiel Stefaan günün axırında aparılacaq yekun qiymətləndirmələrdən sonra qurumun müşahidələrin nəticələri ilə bağlı bəyanatla çıxış edəcəyini bildirdi.

Malta parlamentinin spikeri, Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyası müşahidə missiyasının rəhbəri Farrugia Angelo müşahidə apardıqları məntəqələrdə səsvermənin dinc və mütəşəkkil şəkildə keçdiyinin, seçicilərin referenduma çıxarılan hər bir məsələyə diqqətlə yanaşdıqlarının şahidi olduqlarını dedi.

## Ölkəmizin müvafiq strukturları ilə Avropa Xalq Partiyası arasında əməkdaşlıq uğurla inkişaf edir

*Azərbaycan Prezidenti İlham Əliyev Avropa Xalq Partiyasının nümayəndə heyətini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti və Genişlənmə Komitəsinin sədri, Avropa Xalq Partiyasının keçmiş sədr müavini David Marionun başçılıq etdiyi, Avropa Parlamentinin, Avropa ölkələrinin deputatlarının və bir sıra beynəlxalq təşkilatların



əməkdaşlarının daxil olduğu nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Avropa Xalq Partiyasının böyük nümayəndə heyəti ilə Azərbaycana səfərindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkəmizin müvafiq strukturları ilə Avropa Xalq Partiyası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan bir gündə ölkəmizə səfərini yaxın tərəfdaşlıq əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı əməkdaşlığımızın bundan sonra da genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dörd il bundan əvvəl Bakıya səfər etdiyini vurğulayan Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti və Genişlənmə Komitəsinin sədri David Mario ötən dövr ərzində paytaxtda böyük dəyişikliklərin şahidi olduğunu və həyata keçirilən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. David Mario bu gün səhər artıq bir neçə seçki məntəqəsində müşahidələr apardıqlarını dedi və gün ərzində Bakıda və ölkəmizin müxtəlif regionlarında müşahidələrini davam etdirəcəklərini bildirdi. Azərbaycan üçün əsas məsələlərdən biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq ötən səfərində nümayəndə heyəti ilə birlikdə cəbhə bölgəsində olduğunu xatırladı və Avropa Xalq Partiyasının nümayəndələri olaraq münaqişə ilə bağlı əsl həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması işinə töhfə verə biləcəklərini vurğuladı. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın beynəlxalq hüquqa əsaslanan konstruktiv mövqeyini dəstəklədiklərini bildirdi.

## Azərbaycanın Baş naziri 29 saylı seçki məntəqəsində səs verib



Sentyabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı keçirilən ümumxalq səsverməsinin (referendum) başlandığı səhər saatlarından 16 saylı Yasamal ikinci seçki dairəsinin 29 saylı seçki məntəqəsində fəallıq müşahidə olunurdu. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə bu seçki məntəqəsinə gələrək səs verib. Məntəqədə 1423 seçici qeydiyyata alınıb. Səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri səs verib



Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" 2016-cı il 26 iyul tarixli Sərəncamına uyğun olaraq sentyabrın 26-da ölkəmizdə ümumxalq səsverməsi (referendum) keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvanda seçkilərin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün zəruri tədbirlər görülüb, muxtar respublika üzrə 292 açıq və 24 qapalı seçki məntəqəsi yaradılıb, 271 min 938 aktiv seçki hüququna malik seçici qeydə alınıb. Seçkilərdə ilk dəfə iştirak edən seçicilərin sayı 4003 nəfərdir. Seçki məntəqələrində seçicilərin öz iradələrini sərbəst və müstəqil şəkildə ifadə etmələri üçün lazımi şərait yaradılıb, veb-kameralar quraşdırılıb, müşahidəçilər üçün yerlər ayrılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki 4-15 saylı seçki məntəqəsində səs verib. Ali Məclisin Sədri seçki prosesinin gedişi ilə maraqlanıb. Məlumat verilib ki, 4-15 saylı seçki məntəqəsində 1495 seçici qeydə alınıb. Sakinlər rahat və sərbəst şəkildə öz iradələrinə uyğun olaraq səs verirlər. Saat 11:00-a olan məlumata əsasən seçicilərin 29 faizi seçkidə iştirak edib.

## *Avropa Xalq Partiyası:* Ümumxalq səsverməsi Azərbaycan xalqının iradəsini mütləq şəkildə əks etdirdi



Azərbaycanda Konstitusiyaya təklif edilən dəyişikliklər və əlavələrlə bağlı sentyabrın 26-da keçirilən ümumxalq səsverməsi azad, sərbəst və ən mütərəqqi beynəlxalq standartlara cavab verib. Səsvermə Azərbaycan xalqının iradəsini mütləq şəkildə əks etdirib. AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Xalq Partiyasının vitse-prezidenti David Mario sentyabrın 26-da keçirdiyi mətbuat konfransında deyib. Bildirilib ki, Avropa Xalq Partiyası Azərbaycanda keçirilən ümumxalq səsverməsində Mərkəzi Seçki Komissiyasının dəvəti əsasında müşahidəçi qismində iştirak edib. Nümayəndə heyəti 11 üzvdən ibarətdir. Onlar bundan əvvəl müxtəlif ölkələrdə keçirilən seçkiləri izləyiblər və kifayət qədər təcrübəyə sahibdirlər. Nümayəndə heyəti səsvermədən bir gün əvvəl seçki məntəqələrində müşahidələr aparıb. Vitse-prezident deyib ki, bugünkü səsvermədə Azərbaycan vətəndaşları təklif olunan 29 dəyişiklik və əlavəyə müstəqil şəkildə münasibətlərini bildiriblər. Partiya üzvləri gün ərzində ölkə ərazisindəki müxtəlif seçki məntəqələrində səsvermənin gedişini izləyiblər. Müşahidələr beynəlxalq standartlara tam uyğun aparılıb.

## *Rusiyalı müşahidəçi Andrey Klişas:* İnsanlar səsvermə prosesində fəallıq nümayiş etdirdilər



Gün ərzində bir sıra seçki məntəqələrində olduq, səsvermənin gedişini müşahidə etdik. Mən bu prosesin bilavasitə iştirakçısı kimi gördüm ki, seçicilərin öz iradələrini sərbəst ifadə etmələri üçün hər cür şərait yaradılıb. Bundan əlavə, referendumun yüksək səviyyədə təşkil olunmasını, insanların ona marağını, Azərbaycan vətəndaşlarının müsbət əhval-ruhiyyəsini xüsusi qeyd etmək istərdim. AZƏRTAC xəbər verir ki, bu sözləri sentyabrın 26-da müşahidəçi - Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Konstitusiya qanunvericiliyi və dövlət quruculuğu komitəsinin sədri Andrey Klişas jurnalistlərə müsahibəsində deyib. Azərbaycan vətəndaşlarının yüksək fəallığını xüsusi qeyd edən rusiyalı ekspert deyib: "İnsanlar səsvermə prosesinin gedişində fəallıq nümayiş etdiriblər. Onlar Azərbaycan üçün vacib olan bu prosesdə özlərinin iştirakının əhəmiyyətini başa düşürlər. Daha bir məqam diqqəti cəlb edir: gənclər səsvermədə iştirak etməklə ölkənin gələcəyi üçün özlərinin məsuliyyətini dərindən dərk edirlər. Bu, təkcə mənim yox, bizim müşahidə missiyasının bütün üzvlərinin qənaətidir".

## Prezident Administrasiyasının rəhbəri 7 saylı seçki məntəqəsində səs verib



Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə əlaqədar sentyabrın 26-da keçirilən ümumxalq səsverməsinin başlandığı səhər saatlarından Bakının 29 saylı Səbail seçki dairəsinin 7 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev həmin məntəqədə səs verib. Məntəqədə səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər. Prezident Administrasiyasının rəhbəri jurnalistlərə müsahibəsində də Venesiya Komissiyasının Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı Referendum Aktı layihəsinə verdiyi rəyə münasibətini açıqlayıb. Akademik Ramiz Mehdiyev Venesiya Komissiyasının bu rəyinə münasibətinin mənfi olduğunu vurğulayaraq deyib: "Onlar bizimlə müzakirə aparmayıblar. Onlara sənəd göndərməmişik. Özləri tapşırıqlar əsasında belə məlumatlar yayıblar. Bizim münasibətimiz çox mənfidir". Ramiz Mehdiyev referendumun ölkəmizə çox şey verəcəyini vurğulayaraq bildirib ki, Azərbaycan inkişaf edir və ümumxalq səsverməsinə çıxarılan məsələlər də bu inkişafa xidmət edəcək.

## Milli Məclisin sədri Oqtay Əsədov 22 saylı seçki məntəqəsində səs verib



Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə əlaqədar sentyabrın 26-da keçirilən ümumxalq səsverməsinin (referendum) başlandığı səhər saatlarından 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 22 saylı seçki məntəqəsində də fəallıq müşahidə olunurdu. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov bu seçki məntəqəsinə gələrək səs verib. Məntəqədə 1203 seçici qeydiyyata alınıb. Səsvermənin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdilər.

## "ELS" Müstəqil Araşdırmalar Mərkəzi "exit-poll"un nəticələrini açıqlayıb



"ELS" Müstəqil Araşdırmalar Mərkəzi sentyabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı keçirilən ümumxalq səsverməsi (referendum) zamanı həyata keçirdiyi "exit-poll" tədqiqatının nəticələrini açıqlayıb. AZƏRTAC xəbər verir ki, mərkəzin rəhbəri İradə Yaqubova mətbuat konfransında "exit-poll"un 118 seçki dairəsinin 400 seçki məntəqəsində aparıldığını və gün ərzində intervüerlərin məlumatları saat 10:00, 13:00, 16:00, 18:00-da "ELS"in Qərargahına ötürdüklərini deyib. Bildirib ki, məlumatların toplanması prosesi normal keçib. Saat 18:00-da olan məlumata görə, səsvermə fəallığı 65,1 faiz olub.

Regionlarda olduğu kimi, paytaxtda da seçici fəallığı nəzərə çarpdığını deyən İ.Yaqubova seçicilərin tədqiqata böyük maraq göstərdiklərini və anketləri həvəslə doldurduqlarını vurğulayıb. "Dövlət təhlükəsizliyi və müdafiəsinin təmin edilməsi ilə bağlı Konstitusiyaya təklif olunan dəyişikliklərə 90,2 faiz seçici müsbət, 9,8 faizi isə mənfi cavab verib. İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsinə dair təkliflər 88,4 faiz seçici tərəfindən dəstəklənib. Seçicilərin 11,6 faizi isə bu təklifləri qəbul etmədiyini bildirib. Dövlət idarəetməsi sistemi və icra hakimiyyəti strukturunda islahatlarla bağlı təkliflərə 88,5 faiz seçici "Hə", 11,5 faiz isə "Yox" deyib. Seçkili və təyinatlı vəzifələrin yaş məhdudiyyəti və səlahiyyət müddətinin dəyişdirilməsi ilə bağlı təkliflər 86,4 faiz seçici tərəfindən müsbət, 13,6 faiz tərəfindən mənfi qarşılanıb", - deyə İ.Yaqubova qeyd edib.

## Samir Şərifov: Manat öz ədalətli məzənnəsini tapacaq



Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Şübhəsiz ki, bazar iqtisadiyyatı prinsiplərinə uyğun manatın məzənnəsi öz yerini tapacaq. Bu gün Mərkəzi Bank bu prosesi yaxından izləyir, lazım gəldikdə müdaxilələr edir. AZƏRTAC xəbər verir ki, bu barədə maliyyə naziri Samir Şərifov jurnalistlərə açıqlamasında deyib. Maliyyə naziri qeyd edib ki, manatın fundamental məzənnəsinin tapılması üçün ölkəyə daxilolmalar və çıxarılan vəsait arasında tarazlıq olmalıdır. Bu tarazlıq olduqda hesab edirəm ki, manat öz ədalətli məzənnəsini tapacaq. Hazırda ölkəyə valyuta daxilolmaları bir qədər azalıb. Buna baxmayaraq, Mərkəzi Bank tərəfindən keçirilən iki devalvasiya nəticəsində manatın məzənnəsinin ədalətli məcraya yönəldilməsi istiqamətində işlər görülüb. Bu proses bir neçə amildən asılıdır. Bizim əsas ixrac məhsulumuz olan neftin qiymətinin bahalaşması manatın məzənnəsinə müsbət təsir edəcək və manat möhkəmlənəcək. "Biz çalışmalıyıq ki, idxal əməliyyatlarımız azalsın, daha çox öz məhsullarımızdan istifadə edək. Digər tərəfdən də ölkəyə daha çox valyutanın daxil olmasına və ənənəvi ixrac məhsulumuz olan neftlə yanaşı, geniş çeşiddə yeni rəqabətqabiliyyətli məhsulların xarici bazarlara çıxarılmasına çalışmalıyıq. Bu vəzifələr tədricən həll olunduqca manat ədalətli məzənnəsini tapmaqla yanaşı möhkəmlənəcək", - deyə nazir diqqətə çatdırıb.

# Əli Əhmədov: “Referendum uğurla başa çatdı”

*“Xalq Prezident İlham Əliyevin təşəbbüsünü müsbət dəyərləndirdi”*



***“R**eferendum uğurla başa çatdı. Xalq Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən konstitusiyaya təklif edilən dəyişiklikləri müsbət dəyərləndirdi”. SİA-nın verdiyi məlumata görə, bunu referendumun yekunu ilə bağlı Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi Qərargahında keçirdiyi mətbuat konfransında YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib.*

İcra katibinin sözlərinə görə, YAP-ın yerlərdə olan müşahidəçilərinin verdiyi məlumata əsasən seçkilərdə vətəndaşların yüksək fəallığı müşahidə olunub: “Bu da onu deməyə əsas verir ki, vətəndaşlar referenduma məsuliyyətlə yanaşıblar. Test kifayət qədər uğurlu oldu. Səsvermənin təxmini nəticələri bunu büruzə verdi. MSK yaxın vaxtlarda ilkin məlumatlarını açıqlayacaq. Xalq referendumda Azərbaycan Konstitusiyasının müasir baxımdan təkmilləşdirilməsini dəstəklədi”.

Ə.Əhmədov vurğulayıb ki, bugünkü referendum beynəlxaq aləmdə də geniş rezonans doğurdu: “Ölkəmizə gələn beynəlxalq təşkilatların nümayəndələrinin fikirləri də buna sübutdur. Ölkədə keçirilən referendum Seçki Məcəlləsinə tam uyğun şəkildə həyata keçirilib. Bütün ölkə üzrə referendum kifayət qədər sabit və sakit şəraitdə reallaşıb. Bugünkü seçkilər demokratiyanın inkişafı istiqamətində atılan mühüm addımdır. Bu münasibətlə bütün xalqımızı təbrik edirəm. Azərbaycanın inkişafında yeni səhifənin açılacağına əminik. Sosial layihələrin həyata keçirilməsində daha cəsarətli addımlar atılacaq. İnsanların mütləq əksəriyyəti inanıram ki, təklif olunan dəyişiklikləri dəstəkləyiblər”.

YAP sədrinin müavini referendumdan sonra Azərbaycanda hansı islahatların keçiriləcəyinə də aydınlıq gətirib: “İlk növbədə iqtisadi islahatlardan söhbət gedir. Geniş bir hərəkat başlanıb. Prezidentin bir sıra sərəncamları ilə iqtisadi islahatların hansı istiqamətdə gedəcəyi artıq model olaraq dərk olunur. Eyni zamanda, bu istiqamətdə işlər davam etdirilir. Söhbət burada islahatların iqtisadi və hüquqi əsaslarından deyil, siyasi əsasların möhkəmləndirilməsindən gedir. Bu referendum nəticəsində Azərbaycanda daha da təkmilləşən hakimiyyət strukturları islahatların daha uğurlu aparılması üçün daha böyük səlahiyyətlərə yiyələnmiş olacaq. Təbii ki, iqtisadi islahatlar iqtisadi sferanın bütün sahələrini əhatə edir. Eyni zamanda, Azərbaycanda sahibkarlığın fəaliyyəti üçün geniş imkanların yaradılmasını təmin edir”.



# Əli Həsənov: “Azərbaycanda ciddi islahatlar gözlənilir”

***“R**eferendumdan sonra Azərbaycanda ciddi islahatlar gözlənilir və artıq bu proses başlayıb”. Bunu jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov deyib.*



Ə.Həsənov vurğulayıb ki, dövlət başçısı İlham Əliyev 2016-cı ili ölkədə “İslahatlar ili” elan edib: “İslahatlar artıq başlayıb. Əlbəttə, Azərbaycan post-neft dövrünə hazırlaşırdı, ancaq belə tez bir zamanda post-neft dövrünün gələcəyini gözləmirdik. Buna müvafiq olaraq da Prezident İlham Əliyev dərhal operativ, çevik islahatların keçirilməsi təşəbbüsünü irəli sürdü. Hazırda həmin islahatlar paketi qəbul olunub, islahat qatarı reysə buraxılıb. Bu iş üçün ölkənin bütün imkanları, həm inzibati, həm iqtisadi, həm də insan resursları səfərbər edilməkdədir. Ona görə də referendum təşəbbüsünün əsas səbəblərindən biri də Azərbaycanda post-neft dövründə çevik iqtisadi islahatların keçirilməsi, effektiv idarəçilik sisteminin yaradılması və mövcud bürokratik idarəçilikdəki bəzi mexanizmlərin aradan qaldırılmasıdır”. Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi qeyd edib ki, referendum bir tərəfdən Azərbaycanın inkişafından irəli gələn vəzifələrlə bağlıdırsa, digər tərəfdən də Azərbaycanı qarşıda gözləyən vəzifələrlə bağlıdır: “Çevik iqtisadi, siyasi və bütün sahələrdəki idarəçilik ona istiqamətlənib ki, dövlətin inkişafında gecikmələr olmasın. Milli iqtisadiyyatımız dərhal post-neft dövrünün qanunlarına, tələblərinə uyğunlaşdırılsın. Bunun nəticəsində də Azərbaycan xalqının firavan həyatını təmin edək”.

Əli Həsənov həmçinin bildirib ki, müxalifətin vəzifəsi mövcud hakimiyyətə opponentlik etməkdir: “Mövcud hakimiyyətin vəzifəsi Azərbaycan xalqının ona verdiyi mandat çərçivəsində dövlətin idarəçiliyini yaxşı, effektli həyata keçirməkdir. Eyni zamanda, Azərbaycan xalqının növbəti etimadını qazanmaq üçün xalqın maraqlarını ifadə etməkdir. Müxalifətin isə funksiyası yürüdülən siyasətə opponentlik etməkdir. Arzu edirik ki, bu opponentlik də hər zaman sivil formada, eləcə də qanunlar çərçivəsində həyata keçsin. Bəzən təəssüf ki, müxalifətçilərin də xarakterləri fərqli olur. Onların da konstruktivi və qeyri-konstruktivi olur. Hər müxalifət və partiya da öz liderinin xarakterinə uyğun olaraq siyasi fəaliyyət nümayiş etdirir. Müxalifət tənqid edir və etməlidir. Çünki bu, onun funksiyasıdır. Biz isə xalqın iradəsini soruşmaq istəyirik. Bu referendum təşəbbüsü də xalqın iradəsinə söykənir. Əgər onlar bizi dəstəkləyəcəklərsə deməli Prezident İlham Əliyevin təşəbbüsləri yaşamağa layiqdir və Azərbaycan xalqının dəstəyini o qazanıb. Yox dəstəkləməyəcəklərsə, o zaman müxalifət dedikləri daha doğru və haqlıdır”, - deyə Ə.Həsənov bildirib.

# Mətbuat Şurası referendumda jurnalistlərin peşə vəzifələrini yerinə yetirmələri ilə bağlı monitorinqini başa çatdırıb

***A**zərbaycan Mətbuat Şurası sentyabrın 26-da keçirilmiş referendumda jurnalistlərin peşə vəzifələrini yerinə yetirmələri istiqamətindəki monitorinqini başa çatdırıb. Şuradan AZƏRTAC-a bildiriblər ki, monitorinq iki istiqamətdə aparılıb. Şuranın İdarə Heyətinin üzvləri gün ərzində istər paytaxtda, istərsə də bölgələrdəki dairə və məntəqə komissiyalarında olublar.*

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Nəsimi və Nərimanov, sədrin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu Binəqədi, sədrin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli Suraxanı, İdarə Heyətinin üzvləri - Milli Məclisin deputatı Aqil Abbas Səbail, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Xətai, “APA Holdinq”in rəhbəri Vüsalə Abışova Sabunçu, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid Yasamal, Nizami və Nəsimi, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli Səbail, Orta Asiya və Cənubi Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Azər Həsrət Xətai, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı Yasamal, Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayıl Səbail, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev Sabunçu, Mətbuat Şurasının icraçı katibi Rəhim Hüseynzadə Salyan və Neftçala rayonlarındakı məntəqələrə baş çəkiblər. Onlar medianın sərbəst şəkildə səsvermənin gedişini işıqlandırdıqlarının şahidi olublar. Hər hansı nöqsan qeydə alınmayıb. Eyni zamanda, jurnalistlər üçün fəaliyyət göstərməyə yaradılan şərait və imkan da qənaətbəxş qiymətləndirilib. Monitorinqin digər istiqamətini “qaynar xətt” rejimi təşkil edib. Mətbuat Şurasının 012 441 35 30 nömrəli şəhər, 055 201 99 26 saylı mobil telefon nömrəsi saat 8.00-dan 19.00-dək bu rejimdə fəaliyyət göstərib. Peşə vəzifəsini yerinə yetirən jurnalistlər tərəfindən “qaynar xətt”ə hər hansı müraciət daxil olmayıb.

Qeyd edək ki, Mətbuat Şurası bu gün jurnalistlərin referendumu sərbəst şəkildə işıqlandırmalarını təmin etmək üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası və müvafiq dövlət qurumları ilə sıx əlaqədə olub. Bu, medianın peşə vəzifəsinin icrası ilə bağlı hər hansı çətinliyi yaranacağı təqdirdə onun dərhal aradan qaldırılması məqsədilə edilib.

# Sergey Dubovik: Biz Azərbaycanda referendumun gedişini izləməkdən şadıq



**B**iz, Ukrayna MSK-nın əməkdaşları azərbaycanlı həmkarlarımız tərəfindən işin yüksək səviyyədə təşkil olunmasını müşahidə etdik. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası, yerli hakimiyyət orqanları bu referendumun təşkili və keçirilməsi ilə bağlı çox böyük iş görüblər. Hər şey mütəşəkkil qaydadadır. Biz heç bir pozuntu görməmişik. Azərbaycan Respublikası seçki qanunvericiliyinin əsas standartlarına və prinsiplərinə riayət edilir. Seçki məntəqələrinin ətrafında yaxşı ab-hava duyulur. İnsanlar xoş əhvaldadır. Bu gün burada olmağımıza çox şadıq. Həmkarlarımıza uğurlar arzulayırıq. Bu fikirləri sentyabrın 26-da AZƏRTAC-a müsahibəsində Ukrayna Mərkəzi Seçki Komissiyasının əməkdaşı Sergey Dubovik söyləyib. Ukraynalı müşahidəçi deyib: Saat 12-dək 8-10 məntəqədə olmuşuq. İndi Bakının mərkəzi hissəsindəyik. Lakin ucqarlarda, Bakətrafı yaşayış məntəqələrində də olmuşuq. Hər yerdə eyni dərəcədə yaxşı vəziyyət olduğunu gördük. Məntəqə seçki komissiyalarının üzvləri yaxşı hazırlıq keçiblər. Seçicilərə qaydaları vaxtında izah ediblər. Seçicilər seçki bülletenlərinin məzmunu və referenduma çıxarılan dəyişikliklərin mahiyyəti barədə yaxşı məlumatlandırılıb.

-Azərbaycanda səsvermə prosesini ilk dəfə izləyirsiniz?

-Xeyr. Sizin ölkədə parlament seçkilərinin müşahidəsində də iştirak etmişik, Azərbaycan qanunvericiliyini öyrənmişik. Buna görə də vəziyyəti yaxşı bilirik. Bu axşam Azərbaycan MSK-da olmağı planlaşdırırıq. Zənnimcə yekun mətbuat konfransı olacaq. Biz müşahidələrimizin yekun nəticələrini orada açıqlayacağıq.



# ABŞ-ın "AJF Associates & İNC" təşkilatı referendum günü keçirdiyi "exit poll"un nəticələrini açıqlayıb

ABŞ-ın "AJF Associates & İNC" təşkilatı və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən sentyabrın 26-da seçki məntəqələrində təşkil edilmiş "exit poll"un nəticələri açıqlanıb. AZƏRTAC xəbər verir ki, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov "AJF Associates & İNC" təşkilatının Azərbaycanda bundan əvvəl parlament seçkilərində səsvermə günü "exit poll" keçirdiyini diqqətə çatdırıb. O deyib ki, ABŞ-dan olan "exit poll"çular gün ərzində referendumda iştirak edən çoxsaylı vətəndaşların rəylərini öyrəniblər. Bu barədə təşkilatın prezidenti Corc Bornbaum məlumat verəcək.

ABŞ-ın "AJF Associates & İNC" təşkilatının prezidenti Corc Bornbaum bildirdi ki, əvvəlcədən püşk atma metodu ilə seçilmiş 100 seçki dairəsindəki 450 məntəqədə "exit-poll" keçirilib. Respondentlər sorğu prosesinə təsadüfi seçmə metoduna əsasən cəlb ediliblər.

Dünya üzrə 20-dən artıq ölkədə seçkiləri müşahidə etdiklərini bildirən Corc Bornbaum Azərbaycanda keçirilən referendumun peşəkarlıqla təşkil olunduğunu və keçirildiyini yüksək dəyərləndirərək vurğulayıb: "Referendum günü səs verən 32 min 400 nəfər arasında "exit-poll" keçirdik. "Exit poll" keçirdiyimiz məntəqələrdə seçicilərin 88,9 faizi səsvermədə fəal iştirak edib. Onlar referendumda səsverməyə çıxarılan məsələlərə "hə" deyərək, dəyişikliklərin tərəfdarı olduqlarını vurğulayıblar. Azərbaycan Respublikası ərazisində təhlükəsizliyin və müdafiənin, insan haqlarının təmin olunması ilə bağlı təkliflər müsbət qarşılanıb. Sosial təminat ilə bağlı təkliflərə isə seçicilərin 86,5 faizi müsbət cavab verib. Konstitusiya ilə bağlı dəyişiklərə dəstək verənlərin sayı daha çox olub. "Exit poll"a cəlb olunan seçicilərin 90 faizi referenduma çıxarılan məsələlərə "hə" deyib".

## *"Exit-poll"un ilkin nəticələri:* Ölkə üzrə ümumi seçici fəallığı 66,8 faiz təşkil edib



Ümumxalq səsverməsində "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzinin Fransanın "Opinion Way" Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə keçirdiyi "exit-poll"un ilkin nəticələri açıqlanıb. AZƏRTAC xəbər verir ki, mərkəzin rəhbəri Rafiq İsmayılov mətbuat konfransında "exit-poll"un 118 seçki dairəsində aparıldığını deyib. O bildirib ki, sorğu 152 seçki məntəqəsini əhatə edib. Müəyyən olunmuş metodologiyaya əsasən, Konstitusiyaya təklif edilən 29 əlavə və dəyişikliklər dörd bölmədə qruplaşdırılıb. Sorğuda 12 mindən çox səs verən şəxs iştirak edib. "Opinion Way" Sosioloji Tədqiqatlar İnstitutunun direktoru Bruno Jabart bildirib ki, təhlükəsizlik və müdafiənin təmin edilməsi ilə bağlı təkliflərə 89,3 faiz seçici "hə" cavabı verib. İcra hakimiyyətinin strukturuna və səlahiyyətlər çərçivəsinə aid təkliflərə isə 88,9 faiz seçici müsbət cavab verib. İnsan hüquqları və azadlıqlarının konstitusion təminatları ilə bağlı təkliflərə 90,1 faiz seçici müsbət rəy bildirib. Konstitusiyada nəzərdə tutulmuş seçkili və təyinatlı vəzifələrə namizədlər üçün yaş məhdudiyyətinin ləğv edilməsi ilə bağlı bölməyə respondentlərin 88,8 faizi "hə" deyib. Qeyd edilib ki, tədqiqat nəticəsində toplanmış məlumatların təhlilinə əsasən ümumxalq səsvermısində ümumi seçici fəallığı 66,8 faiz təşkil edib.

# "Referendum bütün məntəqələrdə, bütün dairələrdə Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilib"



Azərbaycan Konstitusiyasına dəyişikliklərlə bağlı keçirilən ümumxalq səsverməsi (referendum) baş tutdu. Trend-in məlumatına görə, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov sentyabrın 27-də keçirilmiş referendumun yekunlarına həsr olunmuş mətbuat konfransında deyib. M.Pənahov qeyd edib ki, bu dəqiqələrə qədər Mərkəzi Seçki Komissiyasının ümumi ölkə üzrə fəaliyyət göstərən 5627 seçki məntəqəsinin 70,2 faizindən, yəni 3950-dən məlumatlar daxil olub: "Ümumilikdə bütün 5627 məntəqənin hamısı vaxtında - səhər saat 08:00-da açılıb və gün ərzində proseslər Seçki Məcəlləsinin tələbinə uyğun olaraq həyata keçirilib. Bütün məntəqələr vaxtında bağlanıb, gün ərzində baş verən proseslərlə yanaşı, səslərin sayılması, hesablanması və MSK-ya çatdırılması da geniş ictimaiyyətin, yəni müşahidəçilərin, KİV nümayəndələrin iştirakı ilə həyata keçirilib və ümumilikdə referendum bütün məntəqələrdə, bütün dairələrdə Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilib. MSK sədri əlavə edib ki, respublika üzrə seçici fəallığı 69,7 faiz - 3 671 707 nəfər təşkil edib: "Bildiyiniz kimi, referendumun baş tutması üçün seçicilərin 25 faizi iştirak etməlidir. Yəni ilkin olaraq bizim nəticəmiz bundan ibarətdir ki, səsvermə prosesindən 69,7 faiz seçici iştirak etdiyi üçün referendum baş tutmuş sayılır".

O vurğulayıb ki, səsvermə çox rahat, sakit, şəffaf şəkildə keçib, seçici fəallığı yüksək olub: "Beynəlxalq və yerli müşahidəçilər də seçicilərin fəallığını vurğulayırdılar. Bütün bunlar təsdiq edir ki, seçicilər Referendum Aktına çox ciddi yanaşıb və öz münasibətlərini bildirmək üçün məntəqələrə gəliblər. Mərkəzi Seçki Komissiyası bu referendumun hazırlanıb təşkil edilməsi istiqamətində öz işini həyata keçirib, həm dairə, həm də məntəqə seçki komissiyalarının üzvləri öz vəzifələrini peşəkarlıqla görüblər". M.Pənahov əlavə edib ki, MSK-ya rəsmi şəkildə hər hansı şikayət daxil olmayıb: "MSK-nın "qaynar xətt"inə məlumat almaq məqsədilə müraciətlər edilib".

# Azərbaycanda ümumxalq səsverməsi Rusiya mətbuatının diqqət mərkəzindədir




Azərbaycanda Konstitusiyaya dəyişikliklərlə bağlı sentyabrın 26-da keçirilən ümumxalq səsverməsi Rusiya mətbuatının da diqqət mərkəzindədir. Rusiyanın TASS agentliyi, Vesti.ru saytı, "Rossiya 1", "Rossiya 24", RBK telekanallarında səsverməyə dair informasiyalar və süjetlər yayımlanıb. AZƏRTAC xəbər verir ki, TASS agentliyi referendumun başlanması və başa çatması, Azərbaycan Prezidentinin səsvermədə iştirakı, keçirilən "exit-poll"arın nəticələrinə dair xəbərlər yayıb. Agentlik xarici və yerli müşahidəçilərin fikirlərinə, MSK-da keçirilən mətbuat konfransına istinadən referendumun baş tutduğunu qeyd edib.

"Rossiya 24" telekanalının müxbiri Andrey Şlyapnikov reportajında sentyabrın 26-nın Azərbaycan vətəndaşları üçün vacib gün olduğunu bildirib. Jurnalist qeyd edib ki, səhər saat 8-dən başlayaraq seçicilər səsvermə prosesində iştirak edirlər. O, səsvermə prosesində iştirakın vətəndaşların özlərinin marağında olduğunu, referendumun saat 19-dək davam edəcəyini deyib və qeyd edib ki, 48 saat ərzində hər bənd üzrə nəticələr elan olunacaq.

Rusiya telekanalının müxbiri "exit poll"ların da işini vurğulayaraq, bəzi nəticələrin daha tez məlum olacağını diqqətə çatdırıb. Andrey Şlyapnikov səsvermə prosesini çox sayda müşahidəçilərin izlədiyini, ciddi nəzarətin olduğunu, məntəqələrdə veb-kameraların quraşdırıldığını, şəffaf qutuların qoyulduğunu, bir vətəndaşın təkrar səs verməsinin qarşısını almaq üçün gözlə görünməyən mürəkkəbdən və ultrabənövşəyi lampadan istifadə edildiyini vurğulayıb.

"Vesti.ru" saytında isə Azərbaycan Prezidenti İlham Əliyevin ailə üzvləri ilə birgə səsvermədə iştirak etdiyi vurğulanır. Materialda ölkə Konstitusiyasına ediləcək dəyişikliklər barədə məlumat verilir. Bildirilir ki, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Azərbaycanda seçicilərin öz iradəsini azad şəkildə ifadə etməsi üçün bütün şəraitin yaradıldığını söyləyib. MSK gün ərzində referendumla bağlı 5 dəfə seçicilərin fəallığına dair məlumatları çatdırıb. Referendumda MSK-da qeydiyyatdan keçmiş 117 xarici və 53 mindən çox yerli müşahidəçi müşahidə aparıb. Saytın oxucularına təqdim edilən maraqlı məlumatlardan biri respublikanın qocaman sakinlərindən biri - 1897-ci il təvəllüdlü Nübah Həsənovanın da Sabirabad şəhərində seçkilərdə səsverməsi olub. Materialda referendumun son nəticələrinin oktyabrın 21-də açıqlanacağı deyilir. Azərbaycanda keçirilən referendum "Rossiya-1" telekanalının da diqqət mərkəzində olub. Telekanalda yayımlanan süjetdə bildirilir ki, Bakı vaxtı ilə saat 8-də, Moskva vaxtı ilə isə saat 9-da Azərbaycanda səsvermə məntəqələri açılıb. Referendum üçün ölkə Konstitusiyasına dəyişikliklərlə bağlı təkliflərin əks olunduğu 5 milyondan çox bülleten hazırlanıb. Hər bülletendə 29 bənd və bir neçə mühüm təklif var. Qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev Bakıdakı seçki məntəqələrindən birində səsvermə hüququndan istifadə edib. Səsvermənin gedişini MDB və digər ölkələrdən olan çoxsaylı beynəlxalq müşahidəçi izləyib. Onların arasında Fransa, Böyük Britaniya, Rusiya və Almaniyadan müşahidəçilər olub. Süjetin müəllifi səsverməyə çox ciddi nəzarət olunduğunu, bütün məntəqələrdə səsvermə bülletenləri üçün şəffaf qutuların qoyulduğunu, bir çox məntəqələrdə veb-kameralar quraşdırıldığını diqqətə çatdırıb. Azərbaycanda keçirilən referendum Rusiyanın RBK telekanalının da gündəmində olub. Telekanal referendumun əhatə etdiyi məsələlər barədə detalları açıqlayıb. Bildirilib ki, qanunvericiliyə əsasən seçicilərin fəallığı 25 faizi keçdikdə referendum baş tutmuş sayılır. Ümumxalq səsverməsi başladıqdan 4 saat sonra seçki məntəqələrində artıq 1 milyon 613 mindən çox seçici səs verib.

# Xalq referenduma “HƏ” dedi!

## Referendum demokratik, şəffaf keçirildi, yüksək seçici fəallığı müşahidə olundu

***Sentyabrın 26-da Azərbaycanda Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi keçirildi. Müasir dünyaya inteqrasiya edən Azərbaycan qloballaşma və inteqrasiya proseslərinin müsbət cəhətlərindən yararlanır. Bununla belə, Azərbaycan xalqı özünün əsrlərdən gələn milli-mənəvi dəyərlərini qoruyur, doğma Vətənə, ölkənin maraqlarına münasibətdə vətənpərvər, azərbaycançı mövqedə dayanır. Konstitusiya İslahatları, həmçinin, milli-mənəvi dəyərlərimizin inkişaf etdirilməsi, insanların mədəni səviyyəsinin yüksəlməsi, hüquqi, dünyəvi, demokratik və müstəqil Azərbaycanın yeni zəfərlərə imza atması istiqamətində çox uğurlu addım olacaq.***



### Zərurətdən doğan addıma doğru...

Söz yox ki, hər bir dövlətin konstitusiyasının əsas təməl prinsipləri mövcuddur. Dövlət siyasətinə və dünyada gedən proseslərə uyğun olaraq, Ana Yasada zaman-zaman müəyyən dəyişikliklər edilir ki, bu da zamanın tələbidir. Konstitusiyanın hər bir maddəsində öz əksini tapan qanunların təməl prinsipində xalqın mənafeyi dayanır. Müasir, müstəqil Azərbaycanda da bu faktor əsas olaraq götürülüb və ilk dəfə 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə müasir Azərbaycanın azad, demokratik konstitusiyası qəbul edildi. Sonrakl mərhələdə konstitusiyaya 2002 və 2009 -cu illərdə ümumxalq səsverməsi - referendum yolu ilə daha iki dəfə dəyişikliklər edildi. Beləliklə, zamanın tələbləri ilə uyğunlaşan müstəqil Azərbaycan dövləti növbəti qlobal dəyişikliklər astanasında inkişaf meyarlarını daha da artırması istiqamətində modernləşməyə doğru addım atdı. Daha dəqiq desək, dünyada sürətlə inkişaf edən, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi özünəməxsus yer tutan Azərbaycan müasir dövrün tələblərinə əsasən, yeni dəyişiklikləri zərurətə çevirdi. Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, konstitusiyamıza təklif olunan əlavə və dəyişikliklərin Referendum Aktı layihəsi çərçivəsində təşəbbüsü irəli sürüldü. Beləliklə, konstitusiyaya təklif olunan əlavə və dəyişikliklər üç istiqaməti təşkil etdi. Birincisi, insan hüquq və azadlıqlarının genişləndirilməsi, ikincisi, dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsi, üçüncüsü də, hüquq terminologiyasının dəqiqləşdirilməsi.







### Xalqımız Azərbaycanın tarixinə yazılmış daha bir mühüm gündə yüksək seçicilik fəallığı ilə məntəqələrə axışdı

Müəyyənləşdirilən sahələr dövlətçiliyimizin inkişafındakı yeniliklərin tələbidir. Sentyabrın 26-da, artıq Azərbaycanın tarixinə yazılmış daha bir mühüm gündə xalqımızın böyük dəstəyi və seçicilik fəallığı ilə məntəqələrə doğru axışdı, 11 saatlıq səsvermə prosesindən sonra referendum baş tutdu və xalq daha sürətli tərəqqiyə, daha güclü inkişafa “HƏ” dedi!

Əvvəlki seçkilərdə olduğu kimi, referendumun da azad və ədalətli, demokratik şəraitdə keçirilməsi üçün bütün imkanlar yaradılmışdır. Artıq səhər saatlarından yüksək seçici fəallığı müşahidə edilmişdir. Referendum 125 seçki dairəsi, 5627 seçki məntəqəsi üzrə keçirilmişdir. Ölkə üzrə qeydə alınmış seçicilərin sayı 5 milyon 276 min 111 nəfə olmuşdur. Seçki məntəqələrinə 5 milyon 280 min 924 səsvermə bülleteni paylanılıb. Dairə seçki komissiyalarının hamısı kompyuterləşdirilib və digər lazımi avadanlıqla təmin olunmuşdur. Məntəqələr gözlə görünməyən mürəkkəb və bu mürəkkəbi oxumaq üçün ultrabənövşəyi lampalar və s. zəruri materiallarla tam təchiz edilmişdir. Gün ərzində beş dəfə - saat 10.00-da, 12.00-da, 15.00-da, 17.00-da və 19.00-da səsvermədə fəallıqla bağlı məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi Şəbəkəsi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa MSK-ya ötürülərək internet səhifəsində yerləşdirilməklə ictimaiyyətə təqdim olunmuşdur. Ümumxalq səsverməsi ilə əlaqədar 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində on-line rejimdə işləyən veb-kamera quraşdırılmışdır. Referendumu izləmək üçün Avropa Şurası Parlament Assambleyası, MDB Parlament Assambleyası, Türkdilli Ölkələrin Parlament Assambleyasının müşahidə missiyaları, Böyük Britaniya, İtaliya, Türkiyə, Fransa, Avstraliya və digər dövlətlərin parlamentariləri, xarici ölkələrin ali seçki qurumlarının nümayəndə heyətləri və s. daxil olmaqla, 18 beynəlxalq qurumdan 118 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdir ki, bunlar da 33 ölkənin vətəndaşlarıdır. Müşahidə prosesinə öz təşəbbüsləri ilə və siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, referendum üzrə təşviqat qruplarının təşəbbüsü ilə akkreditasiyadan keçmiş 53 min 531 yerli müşahidəçi qatılmışdır.



Ardı Səh. 9

Əvvəli səh. 8

# Xalq referenduma "HƏ" dedi!

## Referendum demokratik, şəffaf keçirildi, yüksək seçici fəallığı müşahidə olundu

Referendum demokratik, şəffaf keçirilmiş, yüksək seçici fəallığı müşahidə olunmuşdur. Beynəlxalq müşahidəçilər səsvermə prosesinin yüksək səviyyədə təşkil olunduğu, bütün məsələlərin qanun çərçivəsində tənzimləndiyini bildirmişlər.

## Rayon və şəhərlərdə fəallıq ən yüksək səviyyədə müşahidə olunub










Referendum səsvermədə əsas nəzərəçarpan faktorlardan biri də seçicilərin ən yüksək şəkildə fəallıq sərgiləmələri oldu. Seçicilər axın-axın seçki məntəqələrinə gedərək, əlavə dəyişikliklərə səs verdilər. Təbii ki, bütün bunların arxasında dayanan daha bir amil də mövcud idi - "Yeni Azərbaycan" və "Vətəndaş Cəmiyyəti" təşviqat qruplarının yerlərdə apardıqları təbliğatlar nəticəsində seçicilərə əlavə və dəyişikliklərlə bağlı maarifləndirici bilgilər verildi, hazırlanmış bülletenlər vasitəsilə onlar bir daha hüquq və vəzifələri haqqında məlumatlandırıldılar. Məhz bunun nəticəsidir ki, Azərbaycanın paytaxtında və bölgələrində, şəhər və rayonlarında, qəsəbə və kəndlərində hər bir seçici vətəndaşlıq borcunu üzərində hiss edərək, seçki məntəqələrinə getdi, sevinc və daha xoşbəxt gələcəyə səs verdi.

## Azərbaycan sentyabrın 26-da baş tutmuş referendumdan sonra qloballaşan, müasirləşən dünya birliyinə ən ali demokratiya mövqeyini sərgilədi

Bu arada daha bir amili də xatırlatmaq yerinə düşərdi ki, yerlərdə fəaliyyət göstərən əməkdaşlarımız məlumatlar toplayarkən, seçkiləri izləyən müşahidəçilərlə söhbətlər apararaq, proses barədə çoxsaylı məlumatlar əldə etdilər. Rayonlarda yaradılan seçki mühitindən tam şəkildə razı qalan seçicilərlə yanaşı, müşahidəçilər də prosesin demokratik, şəffaf, ən müasir seçki standartlarına cavab verdiyini bildirdilər.

Beləliklə, daha bir mühüm tarix müstəqil, qüdrətli və güclü Azərbaycanımızın tarixinə yazılmış oldu. Azərbaycan xalqı növbəti dəfə dövlətçilik maraqlarından çıxış edərək, xalq-dövlət vəhdətinin sarsılmaz təməllərə söykəndiyini sübuta yetirmiş oldular. Azərbaycan sentyabrın 26-da baş tutmuş referendumdan sonra qloballaşan və müasirləşən dünya birliyinə ən ali demokratiya mövqeyini sərgilədi, qarşıdakı tərəqqi yolunu daha da aydınlatdı, işıqlandırdı!

**Rövşən NURƏDDİNOĞLU**



# Azərbaycanın şanlı tarixində yeni və daha demokratik səhifə açılıb!

## Ümumxalq referendumu: xarici müşahidəçilərin gözü ilə

***Konstitusiyada edilləcək əlavə və dəyişikliklərlə bağlı referendum - ümumxalq səsverməsi artıq başa çatıb. Özündə 23 maddə dəyişikliyi və 6 əlavəni ehtiva edən və ümumxalq səsverməsinə çıxarılan müddəalar seçki qanunvericiliyi əsasında ümumxalq səsverməsinə çıxarıldı. Hər bir seçici hüququna malik olan şəxs bu hüququndan yararlanaraq seçki məntəqələrinə gələrək öz rəyini səsvermə yolu ilə bildirdi.***

Qeyd edək ki, referendum sentyabrın 26-da səhər saat 08.00-da başladı və artıq səhər saatlarından etibarən məntəqələrdə yüksək seçici fəallığı müşahidə edildi. Referendum 125 seçki dairəsi, 5627 seçki məntəqəsi üzrə keçirildi. Nəticədə, ölkə üzrə qeydə alınmış seçicilərin sayı 5 milyon 276 min 111 nəfəri təşkil etdi. Referendumdan öncə seçki məntəqələrinə 5 milyon 280 min 924 səsvermə bülleteni paylanılmış, dairə-seçki komissiyalarının hamısı kompüterləşdirilmiş və digər lazımi avadanlıqlarla təmin olunmuşdur. O cümlədən, məntəqələr gözlə görünməyən mürəkkəb və bu mürəkkəbi oxumaq üçün ultrabənövşəyi lampalar və s. zəruri materiallarla tam şəkildə təchiz edilmişdir.

Səsvermə prosesi barədə əldə edilən ən yeni məlumatlar media təmsilçilərinə, eləcə də referendumu izləyən yerli və xarici müşahidəçilərə verilib. Gün ərzində beş dəfə - saat 10.00-da, 12.00-da, 15.00-da, 17.00-da və 19.00-da səsvermədə fəallıqla bağlı məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi Şəbəkəsi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülərək, internet səhifəsində yerləşdirilməklə, ictimaiyyətə təqdim olunub. Həmçinin, ümumxalq səsverməsi ilə əlaqədar 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində onlayn rejimdə işləyən veb-kamera quraşdırılmışdı.

Referenduma olan maraq və diqqət yalnız ölkəmizdə deyil, xarici ölkələri və beynəlxalq qurumları təmsil edən dairələrdə də öz əksini tapdı. Belə ki, referendumu izləmək üçün Avropa Şurası Parlament Assambleyası, MDB Parlament Assambleyası, Türkdilli Ölkələrin Parlament Assambleyasının müşahidə missiyaları, Böyük Britaniya, İtaliya, Türkiyə, Fransa, Avstraliya və digər dövlətlərin parlamentariləri, xarici ölkələrin ali seçki qurumlarının nümayəndə heyətləri və s. daxil olmaqla, 18 beynəlxalq qurumdan 118 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdi ki, bunlar da 33 ölkənin vətəndaşlarıdır.

Eyni zamanda, müşahidə prosesinə öz təşəbbüsləri ilə və siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, referendum üzrə təşviqat qruplarının təşəbbüsü ilə akkreditasiyadan keçmiş 53 min 531 yerli müşahidəçi qatılmışdı. Səsvermə saat 19.00-da başa çatıb.

Səsvermənin nəticəsi olaraq, müşahidə missiyaları tərəfindən vurğulanıb ki, referendum demokratik, şəffaf keçirilib, yüksək seçici fəallığı müşahidə olunub. Xüsusilə, beynəlxalq müşahidəçilər səsvermə prosesinin yüksək səviyyədə təşkil olunduğu, bütün məsələlərin qanun çərçivəsində tənzimləndiyini bildiriblər.



### Brtitaniyalı parlamentarilər: "Olduğumuz məntəqələrdə seçici fəallığının şahidi olduq"



Britaniyalı parlamentarilər seçici fəallığının müşahidə olunduğunu qeyd ediblər. Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü David Morris deyib ki, "olduğumuz seçki məntəqələrində hər hansı qanun pozuntusu ilə qarşılaşmadıq".

"Burada seçicilər üçün yaxşı şərait yaradıb. Deyə bilərəm ki, Azərbaycanda keçirilən səsvermə prosesi beynəlxlaq səviyyə ilə müqayisə olunandır. Olduğumuz məntəqələrdə seçici fəallığının şahidi olduq". Bu fikirləri isə Britaniyanın Lordlar Palatasının üzvü David Evans bildirib. O, qeyd edib ki, Azərbaycanda tətbiq edilən seçki metodları yüksək səviyyədədir: "Mən ötən seçkilərdə də müşahidəçi qismində iştirak etmişdim. Təəssüratım çox yaxşıdır. Seçici fəallığı müşahidə edilir".

Lord Evans referendumun təqdirəlayiq olduğunu da vurğulayıb: "Azərbaycanda bu referendumun təşkili və keçirilməsində istifadə olunan metodologiya təqdirəlayiqdir".

### ATƏT və AŞPA müşahidəçiləri: "Səsvermə prosesi çox yaxşı təşkil edilib"



ATƏT PA-nın Demokratiya, İnsan Hüquqları və Humanitar Məsələlər Komitəsinin məruzəçisi Haciyanni Kiriakos isə bildirib ki, səsvermə çox yaxşı təşkil edilib. Onun sözlərinə görə, təşkilatçılar səsvermə ilə bağlı mümkün qədər məlumat verməyə çalışırlar: "Seçki məntəqələrində müxtəlif təşviqat materialları yerləşdirilib. Məntəqələr açılandan bəri 4 seçki məntəqəsində olmuşam. Proseduralar dəqiq həyata keçirilir".

AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak isə, öz növbəsində, vurğulayıb ki, səsverməyə qatılanlar arasında qadınlar üstünlük təşkil edir: "Biz Bakının mərkəzində olduq. Səsvermə prosesi çox yaxşı təşkil edilib. İndi Bakıdan kənara çıxmağı planlaşdırırıq".

Xatırladaq ki, günün ilk saatlarında Stefan Şennak 29 saylı Səbail rayon seçki dairəsinin 4 saylı seçki məntəqəsində və 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 23 saylı seçki məntəqəsində olub. O, seçici siyahılarına nəzər salıb, səsvermə prosesini müşahidə edib, yerli müşahidəçilərin fikirlərini də öyrənib.

### Maqaz van Nes Xuan Alexandro Eberhard-Hollandiya: "Azərbaycanda seçkilər beynəlxalq standartlara uyğun keçirilir"



Hollandiyalı müşahidəçi Maqaz van Nes Xuan Alexandro Eberhard isə seçki prosesi zamanı müşahidəsində deyib ki, səsvermə prosesi açıq və sakit keçir və ümumiyyətlə, "Azərbaycanda seçkilər beynəlxalq standartlara uyğun keçirilir".

Seçicilərlə də ünsiyyət qurduğunu qeyd edən müşahidəçi səsvermə prosesinin çox açıq və sakit şəkildə keçdiyini bildirib.

AŞPA üzvü, ispaniyalı Karmen Kvintanilla da müşahidəsi zamanı insanların səsvermə prosesində sərbəst iştirak etdiklərini deyib: "Azərbaycanda referendum çox yaxşı təşkil olunub".

O, referendumun nəticəsinin Azərbaycan xalqı üçün yaxşı olacağına ümid etdiyini bildirib: "İnsanlar sərbəst şəkildə səsvermə prosesində iştirak edirlər. İndidən Azərbaycan xalqını təbrik edirəm".

### Sercio Divina - İtaliya: "Təkrar səsvermənin qarşısını almaq üçün ultraqırmızı şüa ilə barmaqların yoxlanılması effektiv addımdır"



İtaliya Senatının üzvü Sercio Divina da, öz növbəsində, müşahidə apardığı dövr ərzində heç bir hüquq pozuntusu halı ilə qarşılaşmadığını deyib: "Müşahidə apardığımız məntəqələrdə nizam-intizam qaydalarına riayət olunub".

22 saylı Nəsimi II seçki dairəsinin 5 saylı seçki məntəqəsində olan S. Divina qeyd edib ki, indiyədək müşahidə apardığı məntəqələrdə bütün sənədləşmə, qeydiyyat qaydalara uyğun aparılıb: "Referendum zamanı başqa məntəqələrdə təkrar səsvermənin qarşısını almaq üçün ultraqırmızı şüa ilə barmaqların yoxlanılması isə, düşünürəm ki, effektiv addımdır".

Ardı Səh. 11

# Azərbaycanın şanlı tarixində yeni və daha demokratik səhifə açılıb!

## Ümumxalq referendumu: xarici müşahidəçilərin gözü ilə

Əvvəli Səh. 10

Digər beynəlxalq müşahidəçilər də referendum zamanı yüksək aktivliyin müşahidə olunduğunu vurğulayıblar: "İndiyə qədər apardığım müşahidələr seçicilərin kifayət qədər aktiv olduğunu göstərir". Bu barədə Azərbaycanda referendum seçkilərini müşahidə edən Avropa Akademiyasının serbiyalı nümayəndəsi Marko Blogojeviç deyib. O, səsvermənin təşkilinin yüksək səviyyədə olduğunu vurğulayıb.

Səsverməni müşahidə edən Avropa Akademiyasının digər nümayəndəsi Aleksandr Markoviç də həmkarının fikirlərinə şərik olduğunu deyib.

Azərbaycan Konstitusiyasına dəyişikliklərin edilməsi üzrə referendumda səsvermənin mütəşəkkil və sakit keçdiyini Türkdilli Ölkələrin Parlamentlər Assambleyasının (TürkPA) Müşahidə Missiyasının rəhbəri, Qazaxıstan Məclisinin (parlamentin aşağı palatası) deputatı Nurlan Dulatbekov da vurğulayıb. Onun sözlərinə görə, TÜRK PA missiyası bir neçə seçki məntəqəsində olub: "Hər şey dəqiq təşkil edilib"-deyə qeyd edən müşahidəçi bildirib ki, onlar demokratik şəkildə keçirilən səsverməni müşahidə etdiklərinə görə məmnundurlar.

"Azərbaycan xalqı ölkə konstitusiyasına dəyişikliklərin edilməsi üzrə referenduma şüurlu yanaşır və öz səsvermə haqqını reallaşdırır". Bu fikirləri isə TürkPA-nın baş katibi Jandos Asanov deyib. Onun sözlərinə görə, əhalinin aktivliyi müşahidə edilib.



### İlyas Umaxanov: "Bu məsələlər Azərbaycanın gələcəyini, demokratik inkişafını, cəmiyyətin demokratik əsaslarını müəyyənləşdirir"



MDB-dən olan müşahidəçilər missiyası da Referendum Aktını böyük maraqla izləyiblər. Belə ki, Azərbaycanda referendumun yüksək səviyyədə təşkil olunduğunu deyən MDB Parlamentlərarası Assambleyasının (PA) Müşahidə Missiyasının rəhbəri İlyas Umaxanov qeyd edib ki, Azərbaycanda referendumun və seçkilərin keçirilməsinin təşkili baxımından hər şey artıq 10 illərdir çox yüksək səviyyədə hazırlanıb: "Bunu müxtəlif beynəlxalq təşkilatların müşahidə missiyaları və beynəlxalq müşahidəçilər təsdiqləyirlər. Bu, hamı tərəfindən qəbul edilmiş faktdır. Həmçinin, bu məsələlər Azərbaycanın gələcəyini, demokratik inkişafını, cəmiyyətin demokratik əsaslarını müəyyənləşdirir".

İ.Umaxanov qeyd edib ki, heç kəs Azərbaycan xalqının fikrini dəyişmək haqqına malik deyil.

### Dobra Dorin-Mircea: "Hiss olunur ki, seçicilər konstitusiyaya təklif olunan dəyişikliklərlə bağlı qabaqcadan məlumatlandırılıblar"



Beynəlxalq müşahidəçi - Seçkilərə Nəzarət üzrə Avropa Akademiyasının (ASMA) Rumıniyadan olan nümayəndəsi Dobra Dorin-Mircea sentyabrın 26-da Sumqayıtdakı seçki məntəqələrində ümumxalq səsverməsini izləyib.

Gün ərzində şəhərin bir neçə seçki məntəqəsində səsvermənin gedişi ilə tanış olan beynəlxalq müşahidəçi referendumun təşkili ilə bağlı məsələlərin həllindən razılığını ifadə edib: "İnsanlara öz seçimlərini sərbəst ifadə etmək üçün lazımi şərait yaradılıb. Hiss olunur ki, seçicilər konstitusiyaya təklif olunan dəyişikliklərlə bağlı qabaqcadan məlumatlıdırılıblar. Ona görə səsvermə prosesi mütəşəkkil keçir. İndiyədək hər hansı qayda pozuntusu ilə rastlaşmamışam".

Qeyd edək ki, Sumqayıtda təşkil olunan seçki məntəqələrinin önündə Rəy Monitorinq Mərkəzi, Vətəndaşların Əmək Hüquqları, Müdafiə Liqası və LS Araşdırma Mərkəzi "exit-poll" keçirib.

Rəy Monitorinq Mərkəzinin nümayəndəsi Vüsalə Məcidzadə səsvermə ilə bağlı bildirib ki, heç bir qayda pozuntusu qeydə alınmayıb. O bildirib ki, seçki məntəqəsində seçicilərin fəallığı, yüksək əhval-ruhiyyə hiss olunur. İnsanlar səhər tezdən məntəqəyə gələrək, azad və demokratik şəkildə ümumxalq səsverməsində iştirak edirlər.

"Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə bağlı keçirilən ümumxalq səsverməsi (referendum) ilə əlaqədar 17 saylı Yasamal üçüncü seçki dairəsi dairə-seçki komissiyasının 2 saylı seçki məntəqəsində səsvermə prosesi üçün hər cür şərait yaradılıb. Burada olduğumuz müddətdə heç bir qayda pozuntusu və ya vətəndaş narazılığı ilə qarşılaşmamışıq". Bu sözləri isə jurnalistlərlə söhbətində referendumla əlaqədar "exit-poll" aparan "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin məntəqədəki nümayəndəsi Rəhim Bayramlı bildirib. Səsvermə zamanı qeyd olunub ki, məntəqədə ümumxalq səsverməsi demokratik və şəffaf şəraitdə davam edir: "Hər bir vətəndaş səsvermədə yüksək əhval-ruhiyyədə iştirak edir. Sorğular göstərir ki, indiyədək səsvermədə iştirak edən hər bir vətəndaş seçki məntəqəsində yaradılan şəraitdən və səsvermə prosesindən razıdır".

### Stefan Şennak-AŞPA: "Referendumun şəffaf və demokratik keçirilməsi üçün çox iş görülüb"

AŞPA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak da seçkiləri izləyib. O, 29 saylı Səbail rayon seçki dairəsinin 4 saylı və 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 23 saylı seçki məntəqələrində olub. Həmməruzəçi seçici siyahılarına nəzər salıb, səsvermə prosesini müşahidə edib, yerli müşahidəçilərin fikirlərini öyrənib.

Avropa Şurası Parlament Assambleyasının Referendumu Dəyərləndirmə Missiyasının üzvü jurnalistlərə deyib ki, məntəqələr açıldığı vaxtdan səs vermək üçün növbədə çoxlu seçici dayanıb. Səsvermədə iştirak edənlər arasında qadınlar üstünlük təşkil edib. Stefan Şennak, həmçinin, Bakının mərkəzində yerləşən məntəqələrdə olduqlarını, səsvermə prosesinin çox yaxşı təşkil edildiyini, gün ərzində paytaxtdan kənardakı məntəqələrdə də müşahidə apardıqlarını bildirib. "Referendumun şəffaf və demokratik keçirilməsi üçün çox iş görülüb. Səsvermə prosesi normal gedir. İnsanlar sərbəst seçim edirlər. Səsverməni xeyli sayda müşahidəçi izləyir. Məntəqələrdə veb-kameralar quraşdırılıb. Bütün bunlar səsvermənin şəffaf və demokratik keçməsini şərtləndirən amillərdir", - deyə beynəlxalq müşahidəçi Stefan Şennak vurğulayıb.



### Rusiyalı ekspertlər: "Referendum nəticəsində ediləcək dəyişikliklərdən sonra Prezidentin verdiyi qərarlar realizə olunması üçün daha qısa yol keçərək effektiv olacaq"

Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycanda keçirilmiş referendum xarici ölkələrdə də maraqla izlənilib. Belə ki, Şimal qonşumuz olan Rusiyanın ekspertləri bu faktora böyük önəm verdiklərini vurğulayıblar.

"Dövlət idarəçiliyi strukturunda vitseprezidentlik institutunun yaradılması bu sistemin effektliyini artıracaq.

Ardı səh. 12

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

27 sentyabr 2016-cı il

# Azərbaycanın şanlı tarixində yeni və daha demokratik səhifə açılıb!

## *Ümumxalq referendumu: xarici müşahidəçilərin gözü ilə*

**Əvvəli Səh. 11**

Bu barədə ria.ru saytına Moskva Dövlət Universitetinin Postsovet Məkanı üzrə Tədqiqi Mərkəzinin direktor müavini, Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnsitutunun eksperti Aleksandr Karavayev Azərbaycanda keçirilən referendum -ümumxalq səs-



verməsi ilə bağlı fikirlərini bölüşərkən deyib.

"Referendum nəticəsində ediləcək dəyişikliklərdən sonra Prezidentin verdiyi qərarlar realizə olunması üçün daha qısa yol keçərək effektiv olacaq"-deyə qeyd edən Karavayev, həmçinin, bildirib ki, bu, xüsusilə, iqtisadi və sosial amillərin inkişafı üçün əhəmiyyət kəsb edir.

Rusiyanın "Yujnıy Qafqaz" (Cənubi Qafqaz) siyasi klubunun rəhbəri İlqar Vəlizadə isə hesab edir ki, konstitusiyada ediləcək dəyişikliklər həm iqtisadi, həm də siyasi islahatların reallaşdırılması üçün hüquqi təməllər yaradır.

Ekspertlər əlavə ediblər ki, dəyişikliklər əsnasında vətəndaşların hüquqlarının pozulmasının qarşısının alınması və vətəndaş azadlıqlarının təminatı daha effektli şəkildə realizə olunacaq.

Sonda həm Karavayev, həm də Vəlizadə belə nəticəyə gəliblər ki, dəyişikliklər islahatlar üçün baza rolunu oynayacaq və Azərbaycanın iqtisadi böhrandan daha az zərərlə çıxmasına şərait yaradacaq.

### *"Komsomolskaya Pravda":* "Səsvermənin nəticələrinə görə, ölkə rəhbərliyində yeni vəzifələrin təsis edilməsi, prezident və parlamentə seçkilərdə yaş senzinin ləğvi qanuniləşdiriləcək"

"Səsverməni 100-dən çox beynəlxalq müşahidəçi izləyir". Bu başlıqla isə Rusiyanın nüfuzlu "Komsomolskaya Pravda" qəze-



tinin elektron versiyasında qeyd olunub. "Azərbaycan Konstitusiyasında ediləcək dəyişikliklərlə bağlı referendum seçkiləri normal şəraitdə keçirilməkdədir"-deyə yazan "Komsomolskaya Pravda" qəzetində (seçkilər müddətində) qeyd olunur ki, referendum ölkə ərazisində fəaliyyət göstərən 125 dairə üzrə keçirilməkdədir.

Hakimiyyət nümayəndələrinin fikirlərinə də toxunan adıçəkilən media orqanı qeyd edir ki, referendumun keçirilməsinin məqsədi dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinə hesablanıb.

"Səsvermənin nəticələrinə görə, ölkə rəhbərliyində yeni vəzifələrin təsis edilməsi, prezident və parlamentə seçkilərdə yaş senzinin ləğvi qanuniləşdiriləcək"-deyə yazan "Komsomolskaya Pravda" həmçinin, qeyd edir ki, səsvermə prosesini 100-dən çox beynəlxalq və 53 min yerli müşahidəçi izləyir.

### *Habertürk:* "Azərbaycanda seçkilər şəffaf və qanun pozuntuları aşkarlanmadan keçirilir"

Qardaş Türkiyə mediası da Azərbaycanda keçirilən referendumla bağlı xəbərlər yayıb. Onlardan biri - nüfuzlu Habertürk.com saytı səsvermə ərəfəsində yazıb ki, "Azərbaycanda Konstitusiyanın 23 maddəsində dəyişiklik edilməsi və 6 yeni müddəanın əlavə edilməsi üçün keçirilən referendumda səsvermə davam edir". Saytın qeyd etdiyinə görə, 5 milyon 260 min seçicinin olduğu ölkədə paytaxt Bakı daxil olmaqla, digər bölgələrdə 5 min 627 min urnaya bülletenlər atılır və Azərbaycandan kənar yaşayan vətəndaşlar üçün 38 ölkədə seçki məntəqələri qurulub. "Referendumu 53 min yerli, 117 beynəlxalq müşahidəçilər izləyir. Azərbaycanda seçkilər şəffaf və qanun pozuntuları aşkarlanmadan keçirilir" -deyə qeyd edən Türkiyənin media qurumu bildirir ki, referendum axşam saat 19:00-da başa çatacaq. Xəbərin sonunda adıçəkilən sayt müddəalar barədə ətraflı məlumatları yerləşdirib.

### *MDB təmsilçiləri Dmitri Azarov:* "Ümumxalq səsverməsinin azad və demokratik şəraitdə keçirilməsi üçün məntəqələrdə hər cür şərait, imkanlar yaradılıb"

"Saat 8-dən Azərbaycanda keçirilən referendumla bağlı bir neçə məntəqədə olub, insanların səsverməsini müşahidə etmişəm. Yüksək seçki fəallığı mövcuddur". Bunu isə öz açıqlamalarında 29 saylı Səbail seçki dairəsinin 4 saylı məntəqəsində seçki prosesini müşahidə edən MDB təmsilçiləri Dmitri Azarov və İlyas Umaxanov bəyan ediblər. D.Azarov bildirib ki, Azərbaycanın seçki təcrübəsi çox mükəmməldir və bu təc-



rübə öyrənilməlidir: "Ümumxalq səsverməsinin azad və demokratik şəraitdə keçirilməsi üçün məntəqələrdə hər cür şərait, imkanlar yaradılıb. Seçicilər mütəşəkkil şəkildə məntəqələrə gələrək səsvermədə iştirak edirlər".

### *AŞPA-nın müşahidəçisi Sevda Gündüz:* "Seçicilər geniş məlumatlar əldə ediblər"

Daha bir AŞPA-nın müşahidəçisi Sevda Gündüz də referendumla bağlı fikirlərini bildirib və deyib ki, ümumxalq səsverməsi ilə bağlı məntəqələrdə yaradılan şərait, veb-kameraların quraşdırılması müsbət haldır. Onun sözlərinə görə, insanların azad şəkildə öz iradələrini ifadə etmək üçün məntəqələrdə yaradılan şəraitdən narazı qalmaq üçün əsas yoxdur: "Sevindirici haldır ki, referenduma seçicilərin marağı yüksəkdir. Bu da referendum ərəfəsi insanların ümumxalq səsverməsinə çıxarılan dəyişikliklərlə bağlı geniş məlumat əldə etmələri ilə bağlıdır".

### *Serbiya parlamentinin deputatı Aleksandra Tomiç:* "Qadınların belə fəallığı Azərbaycanda demokratiyanın inkişafı üçün böyük uğurdur"

"Referendumla bağlı keçirilən səsvermə üçün bütün avadanlıqlar mövcuddur, təbliğat materialları yerləşdirilib". Bu sözləri isə Serbiya parlamentinin deputatı Aleksandra Tomiç deyib. O, səsvermə günü mərkəzdəki 8



səsvermə məntəqəsində olduğunu bildirib: “Referendumun təşkilat işləri yüksək səviyyədə təşkil edib. Mən şahidi oldum ki, komissiya üzvlərinin çoxu qadındır, düşünürəm ki, bu, çox yaxşıdır. Qadınların belə fəallığı Azərbaycanda demokratiyanın inkişafı üçün böyük uğurdur. Seçici fəallığı normaldır. Müşahidələrimizi davam etdiririk”.

## Fransalı deputatlar: “Düzünü demək lazım gələrsə, müşahidə etməmiş də bilmək olur ki, hər şey qaydasındadır”

Fransa parlamentinin deputatı Mişel Vuazen isə deyib ki, referendum gələcək üçün atılmış böyük demokratik addımdır. O, Azərbaycanda seçki prosesini artıq bir neçə dəfə müşahidə etdiyini bildirib: “Mən artıq hər dəfə müşahidələrimin sonunda belə bir



qənaətə gəlirəm ki, seçkilərin keçirilməsinin keyfiyyəti artır. Referendumda 29 bənd var. Bu, seçiciyə “hə” və ya “yox” demək imkanı verir. Bu, həm icraedici, həm də qanunverici hakimiyyətə imkan verəcək ki, seçicilərin iradəsini həyata keçirsinlər”.

Digər fransalı parlamentari - Tyeri Mariani də fikrini belə tamamlayıb: “Düzünü demək lazım gələrsə, müşahidə etməmiş də bilmək olur ki, hər şey qaydasındadır”.

O, müsahibə verdiyi zamana qədər artıq 5 səsvermə məntəqəsinə baş çəkdiyini deyib: “İlk dəfədir, 20-dən artıq məsələnin səsverməyə çıxarıldığını görürəm. Düşünürəm ki, xalqın fikrini öyrənmək üçün bu, yeganə yoldur. Referendum təşkilatçıları müxtəlif sualları cavablandırmağa icazə verirlər. Düşünürəm ki, təşkilati tərəfdən hər şey düzgündür. Mən cavabları gözləyirəm. Təbii ki, müşahidəmizi davam etdiririk”.

## Qilis Bordo-Belçika: “Qadın seçicilər daha çox fəallıq göstərir”

Belçikalı müşahidəçi Belçika Polis üzrə Araşdırma Mərkəzinin əməkdaşı Qilis Bordonun fikrincə isə insanlar işlərini peşəkarlıqla icra edirlər: “Məntəqələrdə yerli müşahidəçilər var idi. İndiyə qədər proses normal davam edir. Qeyd etmək istərdim ki, qadın seçicilər daha çox fəallıq göstərirlər”.

## TürkPA-nın baş katibi Jandos Asanov: “Ümumilikdə isə, prosesdə seçicilərin yüksək həvəsi və fəallığı diqqət mərkəzindədir”

“Azərbaycan xalqı ölkə konstitusiyasında ediləcək dəyişikliklərlə bağlı keçirilən referendum seçkilərinə tam şüurlu şəkildə yanaşır və səsvermə hüququndan yararlanır”. Bu fikirləri Bakıda referendumla bağlı səsvermə prosesini izləyən TürkPA-nın baş katibi Jandos Asanov jurnalistlərlə söhbətində qeyd edib.



Onun sözlərinə görə, seçicilərin fəallığı xüsusi müşahidə olunur: “TürkPA-nın müşahidə missiyası axşam saatlarından başlayaraq, səsvermənin nəticələri ilə bağlı bülletenlərin sayılmasını müşahidə edəcək və məhz həmin prosesdən sonra seçicilərin fəallığı ilə bağlı fikirlərini açıqlayacaq. Ümumilikdə isə prosesdə seçicilərin yüksək həvəsi və fəallığı diqqət mərkəzindədir”.

Asanov TürkPA-ya üzv olan ölkələrdə keçirilən seçkilərin 2010-cu ildən müşahidə olunduğunu xatırladıb və bildirib ki, təmsil etdiyi təşkilat TürkPA-ya üzv olan ölkələrdə demokratik hüquqların və seçki proseslərinin daha da yaxşılaşdırılmasını əsas hədəf kimi seçib.

## Avstriyalı senator Kristofer Back: “Təəssüratlarımız çox xoşdur, pozitivdir”



Avstriyalı senator Kristofer Back isə bildirib ki, onların təəssüratları pozitivdir.

Onun qeyd etdiyinə görə, seçicilərin məntəqələrdə qeydiyyatı çox sadə və düşünülmüş şəkildə həyata keçirilir: “Bülletenlərin küncü kəsilib, seçiciyə təqdim olunur və kəsilmiş künclər ayrıca saxlanılır. Günün sonunda biz səslərin hesablanması prosedurunda iştirak edəcəyik və müvafiq məntəqədə qutularda neçə bülletenin olması, kəsilmiş künclərin sayı hesablanacaq. Onların sayı eyni olmalıdır. Bununla da səsvermənin düzgünlüyü təsdiq olunur ki, eyni şəxs bir dəfədən artıq səs verə bilməz. Onu da əlavə edim ki, təəssüratlarımız çox xoşdur, pozitivdir”.

## Qorburq Volfanq, Avstriya Parlamentinin üzvü: “Bəzi müxalif təşkilatların bizim haqqımızda yanlış düşüncələrə qapılmalarından təəssüf hissi keçiririk”

Avstriya Parlamentinin üzvü Qorburq Volfanq isə bildirib ki, müşahidə apardığı məntəqələrdə qanun pozuntusunun şahidi olmayıb. O, digər həmkarlarından fərqli olaraq, referendum prosesinə müxtəlif üsullarla kölgə salmağa çalışan yerli müxalifətə ittihamlarını da irəli sürüb: “Bəzi müxalif təşkilatlar, qeyri-hökumət təşkilatları düşünürlər ki, Azərbaycandan seçki ilə bağlı müsbət rəy üçün bizə rüşvət verilib. Bizim obyektiv hesabatımız haqqında belə düşünmələrindən təəssüflənirik”.

O, səsvermə müddətində 6 seçki məntəqəsində müşahidə apardığını deyib: “Heç birində qanun pozuntusunun şahidi olmadıq. Deyə bilərəm ki, olduğumuz seçki məntəqələrində seçici fəallığı yüksək idi, artıq seçicilərin dörddə bir hissəsi səs vermişdi”.

## Avstraliyalı deputatlar: “Azərbaycanda referendumda şəffaflıq və prosesə nəzarət Avstraliyadakından yüksəkdir”

Avstraliyalı müşahidəçi Kristofer Bek də digər xarici həmkarlarıtək bildirib ki, Azərbaycanda referendum çox yaxşı təşkil olunub. Onun sözlərinə görə, səsvermənin şəffaflığının təmin edilməsi üçün çoxlu təminatlar var. K.Bek referendumun təşkilinin standartlarından məmnun qalıb.

Avstraliya parlamentinin müşahidəçi missiyasının üzvü Kreyq Kelli də deyib ki, Azərbaycanda referendumda şəffaflıq və prosesə nəzarət Avstraliyadakından yüksəkdir: “Məsələn, Avstraliyada şəxsiyyət vəsiqəsini tələb etmirlər”. K.Kellinin sözlərinə görə, missiya Bakı və Abşeron yarımadasında təqribən 10 seçki məntəqəsində olub: “Referendum prosesində çoxlu qadın iştirak edir ki, bu da məni sevindirir”.

## Necdet Ünüvar: “Seçkilər şəffaf və demokratik şəraitdə keçirilib”



Qardaş Türkiyəni təmsil edən deputat, Türkiyə parlamentinin Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Necdet Ünüvar isə vurğulayıb ki, dövlət şəffaf seçkilərin keçirilməsi üçün bütün zəruri tədbirləri görüb: “Seçkilər şəffaf və demokratik şəraitdə keçirilib və bu faktor bir daha təsdiq edir ki, Azərbaycanda seçicilər fəallıq göstəriblər”.

## Fransa-Qafqaz Dostluq qrupunun sədri Andre Rişar: “Azərbaycanda referendumun keçirilməsi prosesi standartlara tam uyğundur”



“Azərbaycanda seçkilərin təşkilində gördüklərimiz Fransada tətbiq etdiklərimizdən fərqlənmir”. Bu fikirlərlə isə Fransa parlamentinin senatoru, Fransa-Qafqaz Dostluq qrupunun sədri Andre Rişar deyib. A.Rişar qeyd edib ki, Azərbaycanda referendumun keçirilməsi prosesi standartlara tam uyğundur. O, əlavə edib ki, bu gün Azərbaycanda keçirilən referendum xalqın iradəsini əks etdirir: “Bu gün axşam seçkilərin nəticəsi bilinəcək və biz xalqın referenduma münasibətini görəcəyik”.

## Avropa Xalq Partiyasının nümayəndəsi Ramona Manesku: “Bütün prosedurlar beynəlxalq standartlara cavab verir”

Avropa parlamentinin rumıniyalı deputatı, Avropa Xalq Partiyasının nümayəndəsi Ramona Manesku da, öz növbəsində, bildirib ki, vətəndaşlar seçki məntəqələrində fəallıq göstərirlər və onlar bilirlər ki, nəyə səs verirlər. Onun sözlərinə görə, referenduma hazırlıq prosesində bütün prosedurlar beynəlxalq standartlara cavab verir.

Serbiyalı deputat xanım Tomik Aleksandra da deyib ki, o, müşahidəsi əsnasında əhalinin səsverməyə böyük maraq göstərməsinin şahidi olub: “Bunu müsbət qiymətləndirirəm”. Xatırladaq ki, referendumu izləmək üçün 117 beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasında akkreditasiyadan keçib. Onlar təxminən 35 ölkənin, Avropa Şurası Parlament Assambleyası da daxil olmaqla, müxtəlif beynəlxalq təşkilatların nümayəndələri, parlamentarilərdir. Ümumilikdə, müşahidəçilərin sayı 53 minə yaxındır.

Eyni zamanda, seçkilərin nəticələrinə təsir edə biləcək qanun pozuntusu da müəyyən edilməyib. Nəticədə, Mərkəzi Seçki Komissiyası qanunla nəzərdə tutulmuş qaydada seçki prosesinin təşkilini təmin edib.

Beləliklə, müstəqil Azərbaycanın şanlı tarixində yeni və daha demokratik səhifə açılıb. Azərbaycan xalqı bir şüar altında cəmləşərək, xalq-hakimiyyət vəhdətini bütün dünyaya nümayiş etdirməklə, real, gerçək demokratik seçki mühitini isbat edib.

***Rövşən NURƏDDİNOĞLU***

# Naxçıvan şəhər sakinləri ümumxalq səsverməsində yüksək fəallıq nümayiş etdiriblər

***Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində ümumxalq səsverməsi (referendum) ruh yüksəkliyi və seçici fəallığı şəraitində keçirilib. 4 saylı Naxçıvan şəhər seçki dairəsinin əhatə etdiyi seçki məntəqələrində olarkən biz bunun bir daha şahidi olduq.***

Məlumat üçün deyək ki, dairə üzrə 37 məntəqədə, ümumilikdə, 44 min 304 seçici var ki, bunlardan da 615 nəfəri ilk dəfə səs vermədə iştirak etmək hüququ qazanıb. Seçicilərin 1 nəfərinin yaşı 100-dən yuxarıdır. Seçki məntəqələrinin hamısı müasir binalarda yerləşir. Dairənin 4-10, 4-12, 4-15, 4-17 və 4-28 saylı seçki məntəqələrində veb-kameralar quraşdırılıb.

Muxtar respublikanın paytaxtında - Naxçıvan şəhərində səsvermə prosesini izləmək, seçicilərin fikirlərini öyrənmək üçün müşahidələrimizə Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yerləşən 9 saylı seçki məntəqəsindən başladıq.

Qaydalara uyğun olaraq, 4-9 saylı məntəqə seçki komissiyasının sədri Namiq Novruzov komissiya üzvləri qarşısında şəffaf qutuların möhürlənməsini həyata keçirdi. Həm daşınan qutu, həm də məntəqədə yerləşən şəffaf qutular ayrı-ayrılıqda möhürləndi. Məntəqədə səsverməyə vaxtında - saatlarımız 8:00-i göstərəndə start verildi. Referendumun ilk saatlarından başlayaraq artıq məntəqəyə seçicilərin axını müşahidə edilirdi. Məntəqədə ilk səs verən Hikmət Muxtarovla həmsöhbət oluruq. O deyir: "Bütün seçkilərdə mən həmişə çalışmışam ki, öz səsvermə hüququmdan istifadə edərək səs verim. Çünki mən belə hesab edirəm ki, keçirilən hər bir seçki ölkəmizin taleyində əhəmiyyətli rol oynayır. Bu mənada Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin ümumxalq səsverməsinə çıxarılması böyük əhəmiyyətə malikdir. Ona görə də səhər ilk işim 4-9 saylı seçki məntəqəsinə gələrək səsvermə hüququmdan istifadə etməklə vətəndaşlıq mövqeyimi bildirməyim oldu. Burada səsvermənin şəffaf və azad keçirilməsi üçün hər cür şərait yaradılıb. Referendumun uğurla başa çatacağına və ölkəmizin gələcəyi üçün faydalı olacağına əminəm".













Müşahidələrimizi Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbdə yerləşən 4-36 saylı seçki məntəqəsində davam etdiririk. Məntəqənin yerləşdiyi binaya yaxınlaşarkən burada seçicilərin çoxluğu və yüksək əhval-ruhiyyə ilə referendumda iştirak etmələri diqqətimizi cəlb etdi. 26 sentyabr - referendum günü həm də ad gününü qeyd edən Arif Qurbanovla rastlaşdıq. Arif Qurbanov bildirdi ki, bu gün həyatının ən yaddaqalan günü olacaq. Sevincini bizimlə bölüşən Arif dedi: "Ad günümün ümumxalq səsverməsinin keçirildiyi günə təsadüf etməsi məni hədsiz dərəcədə sevindirdi. Çünki bu gün muxtar respublikamızda insanlar bayram əhval-ruhiyyəsindədirlər və bu tarix ölkəmizin ictimai-siyasi həyatında əlamətdar gün kimi qalacaq. Həm də bu gün mən ilk dəfə səsvermə hüququmdan istifadə etdim. Yəni, mən də bir vətəndaş kimi mövqeyimi səsvermə yolu ilə bildirdim. Bu mənada 26 sentyabr mənim üçün ikiqat bayramdır".

4-36 saylı məntəqə seçki komissiyasının sədri İsa Məhərrəmovun sözlərinə görə, 1495 seçicinin qeydiyyatda olduğu məntəqədə 24 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edən seçici var. Bu gün onlar fəallıqları ilə seçiliblər.

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsinin inzibati binasında yerləşən 4-37 saylı seçki məntəqəsində də gənclərin fəallığı diqqətimizi cəlb etdi. Məntəqə seçki komissiyasının sədri Həsən Əliyevdən öyrəndik ki, məntəqədə qeydiyyatda olan 1494 seçicidən 18 nəfəri ilk dəfə səs verən vətəndaşlardır. Seçicilərin hamısı səsvermə prosesində fəallıq nümayiş etdirirlər. Məntəqədə səs verən Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov bizimlə söhbətində hər bir vətəndaşın səsvermədə şəffaf və demokratik şəkildə öz iradəsini bildirməsi üçün yüksək səviyyədə şəraitin yaradıldığını qeyd etdi.

Veb-kamera ilə təchiz olunmuş 4-28 saylı seçki məntəqəsində də olduq. Bu məntəqə Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə yerləşir. Məntəqə seçki komissiyasının sədri Arzu Abdullayevdən aldığımız məlumata görə, 1494 seçicinin qeydiyyatda olduğu məntəqədə 18 nəfər ilk dəfə səs vermək hüququna malikdir. Səsvermədə bütün seçicilər həvəslə iştirak edirdilər.

4-28 saylı seçki məntəqəsində səsvermə hüququnda istifadə edən əslən ukraynalı olan Azərbaycan Respublikasının vətəndaşı Zoya Seyidova qeyd etdi ki, həqiqətən də, muxtar respublikada hər seçkidə seçicilərin yüksək fəallığını müşahidə edib. 1983-cü ildə Naxçıvan sakini Mirşücayət Seyidov ilə ailə həyatı quran və o vaxtdan Naxçıvan şəhərində yaşayan Zoya Seyidova dedi: "Bu gün məntəqəyə gələndə seçicilərin fəallığını müşahidə etdim. Bunun əsas səbəbi muxtar respublikada yaradılan demokratik şəraitdir. Digər tərəfdən seçicilərin fəallığı onların siyasi proseslərdən məlumatlı olduğunu göstərir. Mən də yaradılan bu şəraitdən bəhrələnərək Azərbaycan Respublikasının vətəndaşı kimi səsvermə hüququmdan istifadə etdim. Mən məntəqə seçki komissiyasının üzvlərinin biz vətəndaşlara necə hörmətlə yanaşdığını, lazım gələndə qanunvericilik çərçivəsində bizə hər cür köməklik göstərdiklərini gördüm. Bu, çox müsbət haldır".

Müşahidə apardığımız növbəti ünvan "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin binasında təşkil edilən 4-17 saylı seçki məntəqəsi oldu. Burada da məntəqə seçki komissiyasının işində Yeni Azərbaycan Partiyasının, Böyük Quruluş Partiyasının, Ana Vətən Partiyasının təmsilçiləri və bitərəflər iştirak edirdilər. Bu məntəqədə 1376 seçici qeydiyyatdadır. Səsvermə prosesinə start verildikdən qısa zaman sonra artıq 300-dən çox seçici səsvermə hüququndan istifadə etmişdi.

Məntəqə seçki komissiyasında Ana Vətən Partiyasının təmsilçisi olan Aytac Vəlizadə bildirdi ki, komissiya üzvü olduğu 4-17 saylı seçki məntəqəsində vətəndaşların sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılıb: "Səsvermənin gedişatından razıyıq, proses normal qaydada keçir. Seçici fəallığını xüsusilə qeyd etməliyəm. İnsanlar məntəqəyə gəlir və heç bir müdaxilə olmadan səs verirlər".

1496 nəfər seçicinin qeydiyyatda olduğu Naxçıvan şəhərindəki 8 nömrəli uşaq bağçasının binasında yerləşən 4-20 saylı seçki məntəqəsində seçkilərdə 28 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edib. İlk dəfə səsvermə hüququndan istifadə edən Tahir Gülmalıyev seçki məntəqəsində ona lazımi köməkliyin göstərildiyini və sərbəst şəkildə səsvermədə iştirak etdiyini bildirdi.

***AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu***

# AZƏRTAC və JiJi Press əməkdaşlığı genişləndirmək üçün yaxşı imkanlara malikdir





***AZƏRTAC və Yaponiyanın JiJi Press xəbər agentliyi arasında əməkdaşlığı genişləndirmək üçün yaxşı imkanlar mövcuddur. Bu fikirlər IV Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün Azərbaycana gəlmiş JiJi Press agentliyinin baş redaktoru Okuyama Masaşi ilə AZƏRTAC-da keçirilən görüşdə səslənib.***

Baş direktor Aslan Aslanov AZƏRTAC-ın Yaponiyanın Kyodo və JiJi Press agentlikləri ilə yaxşı tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edib. Bildirilib ki, AZƏRTAC və JiJi Press ötən il informasiya mübadiləsi sahəsində əməkdaşlıq sazişi imzalayıb. İki ölkənin informasiya agentlikləri Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) çərçivəsində də fəal əməkdaşlıq edirlər.

Yaponiyalı qonağa bu ilin noyabrında Bakıda keçiriləcək Dünya Xəbər Agentliklərinin V Konqresi və OANA-nın XVI Baş Assambleyası haqqında ətraflı məlumat verilib, bu tədbirlərin JiJi Press ilə əməkdaşlıq münasibətlərini yeni müstəviyə çıxarmaq üçün əlavə imkanlar yaradacağı qeyd olunub.

Okuyama Masaşi Azərbaycana ilk dəfə 25 il əvvəl səfər etdiyini və ötən zaman ərzində Bakının heyrətamiz dərəcədə dəyişdiyini, ecazkar görkəm aldığını bildirib. O, ölkəmizə gəlişindən istifadə edib azərbaycanlı məcburi köçkünlərlə görüşmək istədiyini bildirib.

Baş redaktor JiJi Press ilə AZƏRTAC arasında əməkdaşlıq istiqamətlərini genişləndirmək üçün imkanları araşdırıb müvafiq addımlar atmağın hər iki tərəfin marağına uyğun olduğunu diqqətə çatdırıb.

Görüşdə O.Masaşinin məcburi köçkünlərlə görüşməsinə və Azərbaycan reallıqları barədə material hazırlamasına AZƏRTAC-ın lazımi dəstək göstərməyə hazır olduğu bildirilib.

## Bağır Bağırov: 26 sentyabrda 60 illik yubileyimi qeyd etməklə yanaşı, ölkə vətəndaşı olaraq referendumda səs verirəm

***Sentyabrın 26-da Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə bağlı referendumun keçirildiyi mühüm tarixi gün olmaqla bərabər, həm də bir çox insan tərəfindən xüsusi əlamətdar hadisə kimi də qeyd olunub. Bu insanlardan biri, səsvermədə iştirak edən Bakı şəhər sakini Bağır Bağırovun referendum günündə 60 yaşı tamam olub.***



Sentyabrın 26-da doğum gününü qeyd edən Bağır Bağırov 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 15 saylı seçki məntəqəsində səs verib. Fikirlərini bizimlə bölüşən Bağır müəllim bu tarixin onun üçün xüsusi əhəmiyyət daşıdığını bildirib: “Bu gün əslində mənim üçün ikiqat əlamətdar gündür. Belə ki, 26 sentyabrda 60 illik yubileyimi qeyd etməklə yanaşı, ölkə vətəndaşı olaraq referendumda səs verirəm. Hesab edirəm ki, 26 sentyabr 2016-cı il ölkəmizin ictimai-siyasi həyatında mühüm tarixi gün kimi yadda qalacaq. İnsanlar referendumda Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərə “hə” deməklə öz parlaq və işıqlı gələcəklərinə səs verirlər. Şübhəsiz ki, bu islahatlar Azərbaycanın inkişaf sürətini daha da artıracaq, hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu istiqamətində yeni-yeni uğurların əldə olunmasına gətirib çıxaracaq.”

## Divina Sergio: Azərbaycanda səsvermə hətta İtaliyadakından da intizamlı keçir



Məntəqələrdə səsvermə prosesi yüksək səviyyədə təşkil olunub. Deyə bilərəm ki, Azərbaycanda səsvermə İtaliyadakından da intizamlı keçir. AZƏRTAC xəbər verir ki, bu sözləri sentyabrın 26-da ölkəmizdə keçirilən ümumxalq səsverməsində müşahidəçi qismində iştirak edən İtaliya parlamentinin üzvü Divina Sergio jurnalistlərə açıqlamasında deyib.

D.Sergio bildirib ki, səhər saatlarından səs verməyə gələn vətəndaşların sayı kifayət qədər olub. O deyib: “Biz ATƏT, Avropa Şurasının nümayəndəsi kimi, müxtəlif ölkələrdə seçkiləri müşahidə etmişik. Azərbaycanda da bundan əvvəl seçki proseslərini izləmişəm. Azərbaycanda keçirilən səsvermə Avropa standartlarına daha çox uyğun gəlir. Hətta bəzən Avropa standartlarını da ötüb keçir”.

## Natali Qule: Azərbaycanda ümumxalq səsverməsi olduqca şəffaf keçdi



Azərbaycanda ümumxalq səsverməsi olduqca şəffaf keçdi. Hər dəfə Azərbaycana gələndə məcburi köçkünlərə baş çəkirəm. AZƏRTAC xəbər verir ki, bu sözləri sentyabrın 26-da ölkəmizdə keçirilən ümumxalq səsverməsində müşahidəçi qismində iştirak edən Fransa Senatının üzvü Natali Qule jurnalistlərə açıqlamasında deyib.

Natali Qule deyib: “Azərbaycanda görülən işlər məni çox sevindirir. Hər dəfə Bakıya gələndə yeniliklərin şahidi oluram. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir. Bilirəm ki, ölkənizin uğurlarında birinci xanım Mehriban Əliyevanın da xidmətləri çoxdur”.

## Almaniyada yaşayan 547 Azərbaycan vətəndaşı səsvermədə iştirak edib

Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı Azərbaycan Respublikasında keçirilən ümumxalq səsverməsi (referendum) ilə əlaqədar Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyində yaradılmış 17 saylı Yasamal üçüncü seçki dairəsinin 32 saylı seçki məntəqəsində səsvermə yerli vaxtla saat 19:00-da başa çatıb. Səsvermədə Almaniyada daimi və müvəqqəti yaşayan 547 Azərbaycan vətəndaşı iştirak edib.

## Ər-Riyad: Səsvermə prosesində heç bir qanun pozuntusu baş verməyib



Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə bağlı Azərbaycanda keçirilən ümumxalq səsverməsi (referendum) ilə əlaqədar ölkəmizin Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyində keçirilən səsvermə Ər-Riyad vaxtı ilə saat 19.00-da (Bakı vaxtı ilə 20.00) başa çatıb. Burada 16 saylı Yasamal ikinci seçki dairəsinin tərkibində yaradılmış 35 saylı seçki məntəqəsi seçicilərə xidmət göstərib. Bu məntəqədə konsulluq qeydiyyatında olan 74 nəfərdən 60-ı, yəni, seçicilərin 81,8 faizi səsvermədə iştirak edib. Məntəqədən AZƏRTAC-a verilən məlumata görə, səsvermə prosesində heç bir qanun pozuntusu baş verməyib. Səsvermənin azad və şəffaf keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulan bütün tələblərə əməl olunub. Azərbaycan Respublikası vətəndaşları siyasi iradələrini azad şəkildə ifadə ediblər. Səsvermə yüksək seçici fəallığı ilə başa çatıb.

# "Rəy" Monitorinq Mərkəzinin keçirdiyi "exit-poll"un nəticələri

**"Rəy" Monitorinq Mərkəzi Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə sentyabrın 26-da keçirilmiş ümumxalq səsvermədə (referendumda) 48 seçki dairəsinin 350 məntəqəsində "exit-poll" keçirib. "Exit-poll"un nəticələrinə əsasən, referendumda seçicilərin 66,3 faizi iştirak edib. AZƏRTAC "exit-poll"un nəticələrini təqdim edir.**

| | Referenduma çıxarılan məsələlər | Hə |
|---|---|---|
| 1. | **9-cu maddənin I hissəsi aşağıdakı redaksiyada verilsin:**<br>"I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.". | 85,8% |
| 2 | **24-cü maddədə:**<br>2.1. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda I hissə əlavə edilsin:<br>"I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.";<br>2.2. III hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:<br>"Hüquqlardan sui-istifadəyə yol verilmir.". | 86,9% |
| 3 | **25-ci maddədə:**<br>3.1. III hissənin birinci cümləsində "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə, ikinci cümləsində "milli" sözü "etnik" sözü ilə əvəz edilsin;<br>3.2. aşağıdakı məzmunda VI hissə əlavə edilsin:<br>"VI. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.". | 85,1% |
| 4 | **29-cu maddədə:**<br>4.1. V hissə VII hissə hesab edilsin;<br>4.2. aşağıdakı məzmunda V və VI hissələr əlavə edilsin:<br>"V. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.<br>VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.". | 82,5% |
| 5 | **32-ci maddəyə aşağıdakı məzmunda VI, VII və VIII hissələr əlavə edilsin:**<br>"VI. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.<br>VII. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.<br>VIII. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.". | 86,4% |
| 6 | **36-cı maddədə:**<br>6.1. II hissədən "və digər silahlı birləşmələrdə" sözləri çıxarılsın;<br>6.2. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:<br>"IV. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır.". | 85,2% |
| 7 | **47-ci maddənin III hissəsində "sosial" sözündən sonra "və hər hansı digər meyara əsaslanan" sözləri əlavə edilsin.** | 88,2% |
| 8 | **49-cu maddənin II hissəsində "etməklə" sözündən sonra ", ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə," sözləri əlavə edilsin.** | 84,5% |
| 9 | 53-cü **maddənin I hissəsində "heç bir halda" sözləri çıxarılsın və "vətəndaşlığından"** sözündən sonra "(onun qanunla müəyyən **edilmiş itirilmə halları istisna olmaqla)" sözləri əlavə edilsin.** | 86,4% |
| 10 | **10.** 56-cı maddənin III hissəsində "seçkilərdə iştirak etmək" sözləri "seçilmək" sözü ilə əvəz edilsin. | 86,1% |
| 11 | **11.** 57-ci maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:<br>"Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər.". | 88,3% |
| 12 | **12.** 58-ci maddənin IV hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:<br>"Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır.". | 87,9% |
| 13 | **13. 59-cu maddədə:**<br>13.1. maddənin mətni I hissə hesab edilsin və həmin hissədən "qanunla nəzərdə tutulmuş qaydada" sözləri çıxarılsın;<br>13.2. aşağıdakı məzmunda II hissə əlavə edilsin:<br>"II. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir.". | 86,5% |
| 14 | **14. 60-cı maddə aşağıdakı redaksiyada verilsin:**<br>"Maddə 60. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı<br>I. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.<br>II. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.<br>III. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır.<br>IV. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.". | 83,2% |
| 15 | **15. 68-ci maddədə:**<br>15.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:<br>"Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ";<br>15.2. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin;<br>15.3. aşağıdakı məzmunda I və IV hissələr əlavə edilsin:<br>"I. Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır.";<br>"IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.". | 81,5% |
| 16 | **16.** 71-ci maddənin II hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:<br>"Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır.". | 86,3% |
| 17 | **17.** 85-ci maddənin I hissəsində "yaşı 25-dən aşağı olmayan" sözləri "seçkilərdə iştirak etmək hüququna malik olan" sözləri ilə əvəz edilsin. | 89,4% |
| 18 | **18.** 89-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:<br>"6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda;<br>7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.". | 87,8% |
| 19 | **19.** Aşağıdakı məzmunda 981-ci maddə əlavə edilsin:<br>"Maddə 981. Azərbaycan Respublikası Milli Məclisinin buraxılması<br>I. Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə | 87,5% |

*Ardı Səh. 17*

Əvvəli Səh. 16

| | | |
|---|---|---|
| | namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.<br>II. Növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.". | |
| 20 | **20**. 100-cü maddədən "Yaşı otuz beşdən aşağı olmayan," sözləri çıxarılsın. | 91,1% |
| 21 | **21**. 101-ci maddənin I hissəsində "5" rəqəmi "7" rəqəmi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:<br>"Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan edə bilər.". | 92,5% |
| 22 | **22**. Aşağıdakı məzmunda 1031-ci maddə əlavə edilsin:<br>"Maddə 1031. Azərbaycan Respublikasının vitse-prezidentləri<br>I. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.<br>II. Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.". | 89,3% |
| 23 | **23**. 105-ci maddədə:<br>23.1. I hissənin birinci cümləsində "üç ay ərzində" sözləri "60 gün müddətində" sözləri ilə, ikinci cümləsində "Baş naziri" sözləri "Birinci vitse-prezidenti" sözləri ilə əvəz edilsin;<br>23.2. II hissədə "Baş naziri" sözləri "Birinci vitse-prezidenti" sözləri ilə, "səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri" sözləri "müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini" sözləri ilə əvəz edilsin;<br>**23.3. III hissə aşağıdakı redaksiyada verilsin:**<br>"III. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.";<br>23.4. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:<br>"IV. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş nazirinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir. Həmin səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədrinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.". | 88,7% |
| 24 | **24. Aşağıdakı məzmunda 1061-ci maddə əlavə edilsin:**<br>"Maddə 1061. Azərbaycan Respublikası vitse-prezidentlərinin toxunulmazlığı<br>I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikasının vitse-prezidentinin şəxsiyyəti toxunulmazdır.<br>II. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanma hallarından başqa tutula bilməz, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. | 87,3% |
| | III. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.<br>IV. Azərbaycan Respublikasının vitse-prezidentinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər.". | |
| 25 | **25. Aşağıdakı məzmunda 1081-ci maddə əlavə edilsin:**<br>"Maddə 1081. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin təminatı<br>Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.". | 88,4% |
| 26 | **26. Aşağıdakı məzmunda 1101-ci maddə əlavə edilsin:**<br>"Maddə 1101. Dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun verilməsi<br>Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərinə və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər şəxslərə verə bilər.". | 89,4% |
| 27 | **27. 121-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:**<br>"Azərbaycan Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanı rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.". | 88,7% |
| 28 | **28.** 126-cı maddənin I hissəsində "Yaşı 30-dan aşağı olmayan, seçkilərdə" sözləri "Seçkilərdə" sözü ilə əvəz edilsin. | 84,8% |
| 29 | **29.** Aşağıdakı məzmunda 1461-ci maddə əlavə edilsin:<br>"Maddə 1461. Bələdiyyələrin məsuliyyəti<br>Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar.". | 82,7% |

# Lalə Əliyeva: Bu gün həm ad günümü qeyd etdim, həm də ölkəmizin gələcəyinə səs verdim



Sentyabrın 26-sı Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan dəyişikliklərlə bağlı referendumun keçirildiyi mühüm tarixi gün olmaqla bərabər, həm də bir çox gənc tərəfindən xüsusi əlamətdar hadisə kimi qeyd edilib. Belə ki, səsvermədə ilk dəfə iştirak edən Gəncə şəhər sakini Lalə Əliyevanın 18 yaşı referendum günü tamam olub. AZƏRTAC xəbər verir ki, sentyabrın 26-da doğum gününü qeyd edən Lalə Əliyeva Gəncə şəhəri 39 saylı Kəpəz birinci seçki dairəsinin 9 saylı seçki məntəqəsinə gələrək ümumxalq səsverməsində iştirak edib. İlk dəfə səsvermədə iştirak edən gəncə xatirə hədiyyəsi və Mərkəzi Seçki Komissiyası tərəfindən "İlk dəfə səs verən seçici" vəsiqəsi təqdim olunub. O, referendumda iştirak etdiyinə və Azərbaycanın davamlı inkişafına səs verdiyinə görə özünü xoşbəxt sandığını deyib: "Bu gün həm ad günümü qeyd etdim, həm də ölkəmizin gələcəyinə səs verdim. 2016-cı ilin bu günü yaddaşımda hər zaman xoş xatirə kimi qalacaq".

Qeyd edək ki, 38 min 736 seçicinin qeydə alındığı dairədə ilk dəfə səs vermək hüququ əldə edən gənclərin sayı 162 nəfərdir.

# TÜRKPA müşahidəçiləri: Səsvermə mütəşəkkil və sakit keçib



Türkdilli Ölkələrin Parlamentlər Assambleyasının (TÜRKPA) müşahidə missiyasının rəhbəri, Qazaxıstan parlamentinin deputatı Nurlan Dulatbekov Azərbaycanda referendumla əlaqədar səsvermənin mütəşəkkil və sakit keçdiyini bildirib. N.Dulatbekov TÜRKPA missiyasının artıq üç seçki məntəqəsində olduğunu, şəhər ətrafındakı digər məntəqələrdə də səsvermənin gedişini izləyəcəyini söyləyib.

# Radikal müxalifətin mitinq yarışı...

*Yaxud xarici ölkələrin səfirliklərinin "qrantları" Müsavatla AXCP-ni qarşı-qarşıya qoyur*



***Məlum olduğu kimi, sentyabrın 11-də "Milli Şura" adlı dərnək məlum xarici ölkələrin səfirliklərindəki bazarlamalardan sonra mitinq şousu düzənlədi və açıq-aydın mesaj verdi ki, bu şounu Qərbdəki anti-azərbaycançı qüvvələrin maliyyə dəstəyilə təşkil edib. Əlbəttə ki, mitinq şousunun fiaskosundan geniş danışmağa da ehtiyac yoxdur. Çünki bu şou ilə "Milli Şura"nın həm açıq şəkildə sosial dəstəkdən məhrum olduğu üzə çıxdı, həm də şablonluq məsələnin mahiyyətini açıq ortaya qoydu. Eyni zamanda, mitinqdən əvvəl 10-20 min iştirakçı toplayacaqları barədə gözləntilərinə nail olmayan "Milli Şura" və AXCP sədri Əli Kərimli Müsavata qarşı düşmən mövqeyini bir daha göstərdi. Lakin burada digər diqqətçəkən başqa məqamlar da vardır.***

Belə ki, keçirilmiş mitinqə qatılmaq istəyən Müsavat partiyası "Milli Şura"ya müraciət etsə də, əli boşda qalmışdı. Çünki Əli Kərimli mitinq üçün ayrılan pulları A.Hacılı-İ.Qəmbər cütlüyü ilə bölüşmək istəmədi. Bundan başqa, mitinqdən əvvəl "Milli Şura"nın "təşəbbüsünə" qoşulmaq istəsə də, Ə.Kərimli tərəfindən rədd cavabı alan Müsavatın məqsədi 18 sentyabra təyin etdikləri şoularına tərəfdar toplamaq idi. Lakin "Milli Şura"nın mitinqinə qoşulmaqla qarşı tərəfdən öz aksiyasına dəstək göstəriləcəyinə ümid edən müsavatçılara qapının arxa tərəfi göstərildi.

O da bəllidir ki, mitinqdən əvvəl ölkəmizdə fəaliyyət göstərən, Azərbaycanda siyasi sabitliyin pozulması üçün qrantlar ayıran ABŞ, Fransa və Böyük Britaniya səfirliklərində olaraq təlimatlar alan Ə.Kərimli diplomatik korpuslardan qopartdığı 100 min dolların cəmi 20 minini mitinq şousuna xərcləyib. Elə mitinqə qatılmaq üçün ayrı-ayrı şəxslərə 10-20 manat təklif edilməsi, şouya bu qiymətə "tərəfdar" qatması bunun sübutu idi. Mitinqdə iştirak edənlər də təsdiqləyirdilər ki, onlara meydanda durmaq üçün saatına 10 manat veriblər.

Göründüyü kimi, Ə.Kərimli C.Həsənlini ofsaytda saxlayaraq, ayrılan bütün pulları şəxsən mənimsəyib. Buna dözüm nümayiş etdirə bilməyən Müsavat da sentyabrın 18-də mitinq keçirmək üçün BŞİH-ə müraciət edərək razılıq alıb. Amma bu dəfə də Ə.Kərimli cəld tərpənərək, sentyabrın 17-də mitinq təyin edib və beləliklə də, Müsavatı kölgədə qoymaq üçün növbəti gedişini edib.

Bu mənada, A.Hacılının komandasının fikrinə görə, Ə.Kərimli tələm-tələsik yeni mitinq təyin etməklə, əslində, Müsavatı siyasi arenadan uzaqlaşdırmaq və bununla da simasında "alternativsiz müxalifət lideri" obrazı formalaşdırmaq istəyir. Müsavat sədrinin müavini Yadigar Sadıqovun fikrincə, Ə.Kərimlinin bu addımı "yeganə müxalifət bizik, Müsavat satqındır" fikrini formalaşdırmaq kimi xəyanətkar niyyətindən qaynaqlanır. Radikal dindarların bir qismi də Ə.Kərimlinin onların adından qərar qəbul edib, Müsavatı sıxışdırmaq cəhdlərini pisləyib.

Yaranan vəziyyətə münasibət bildirən düşərgə mənsubları AXCP-nin məlum qərarını pisləyərək, özündən müştəbehliyi müxalifət daxilində önə keçmək istəyinin ifadəsi hesab edirlər. Onların fikrincə, AXCP kimi Müsavatın da mitinq keçirməkdə məqsədi düşərgədə birincilik şansına sahib çıxmaqdır.

Göründüyü kimi, radikal müxalifətin nümayəndələri xarici ölkələrin səfirliklərinin ayırdığı maliyyə vəsaitinə sahib çıxmaq üçün mitinq keçirmək yarışına girişiblər. Onları, əslində, düşündürən siyasi-iqtisadi problemlər deyil, məhz şəxsi maraqlarıdır.

***"SƏS" Analitik Qrupu***

SİYASİ RAKURS

# AXCP-Müsavat arasındakı kəskin gərginlik partiyalararası savaşa doğru

*Partiya funksionerləri açıq ittihamlara başladılar*

***Son günlər AXCP və Müsavat partiyaları arasındakı pozuq münasibətlərin kəskin gərginlik halından çıxaraq partiyalararası savaşa doğru istiqamət alması bir daha sübut edir ki, adıçəkilən siyasi təşkilatlar arasındakı vəziyyət heç vaxt yaxşılığa doğru dəyişilməmiş qalacaq.***

### Ə.Kərimlinin müavinləri Nurəddin Məmmədli və Gözəl Bayramlıdan Müsavat partiyasına : "AXCP üzvlərinə qarşı əsl düşmən kimi davranırlar... Gedib öz mitinqlərinə hazırlaşsınlar"

Artıq bu proses özünü dəfələrlə təkzibedilməz şəkildə təkrar edib. Maraqlı məqamlardan biri də Müsavatın vaxtilə təmsil olunduğu "Milli Şura" sıralarından çıxmasından sonra səngiməyən ittihamlardır ki, indi həmin faktor adıçəkilən təşkilatların - AXCP-"Milli Şura" və Müsavatın keçirməyə cəhd etdikləri uğursuz aksiyaları fonunda özünü sərgiləyir. Məhz belə bir məqamda qarşılıqlı ittihamlar artmağa başlayıb.

Məsələn, bir neçə gün öncə AXCP-nin sədr müavini, "Milli Şura"nın üzvü Nurəddin Məmmədli açıqlamasında bildirib ki, "Bir sıra partiyaların təmsilçiləri AXCP üzvlərinə qarşı əsl düşmən kimi davranırlar". Cəbhə rəsmisi burada konkret ad çəkməyə ehtiyat etsə də, söhbətin Müsavat partiyasından getdiyi kimsəyə sirr deyil.

Digər AXCP və "Milli Şura" funksioneri Gözəl Bayramlı isə kəskin şəkildə bəyan edib ki, Müsavat funksionerləri "Milli Şura"nın tədbirini müzakirə etməkdənsə, gedib öz mitinqlərinə hazırlaşsınlar".

### Müsavatın Məclis sədri Nüşabə Sadıqlıdan AXCP-çilərə: "AXCP və ya "Milli Şura" mübarizəsini müxalifətin daxilinə daşıyır, bunun üçün işləyir, mübarizəni Müsavatla aparır... Ölkədə bir ana müxalifət var və o da Müsavatdır"

Məhz belə bir məqamda Müsavat partiyası məclisinin sədri Nüşabə Sadıqlının qarşı tərəfə cavabı gecikməyib və o, məsələnin tamamilə əksini bildirərək deyib ki, əslində, AXCP-"Milli Şura" bu vasitəylə Müsavata qarşı hücuma keçib. Müsavatçı funksioner deyib ki, cəbhəçilər mənəm-mənəmliklə məşğul olmaqdadırlar. "Məncə, siyasətdə ən yanlış qərar və hərəkət budur"-deyə billdirən Sadıqlı əlavə edib ki, AXCP və "Milli Şura"dan fərqli olaraq, onlar "birinci mənəmlik" prosesində iştirak etmək niyyətində deyillər. Bununla AXCP və "Milli Şura"nın Müsavatın bostanına atdığı daşı geriyə qaytaran müsavatçı xanım dolayı yolla düşmən münasibətində olduqları cəbhəçilərə qarşı ittihamlarını davam etdirib: " Çox təəssüflər olsun ki, bəzi siyasi partiyalar, yəni AXCP və ya "Milli Şura" mübarizəsini müxalifətin daxilinə daşıyır, bunun üçün işləyir, mübarizəni Müsavatla aparır".

Maraqlı məqamlardan biri də Nüşabə Sadıqlının belə bir qarşıdurma və savaş əsnasında yenidən Müsavatı "ana müxalifət partiyası" qismində təqdim etməsidir: "Müxalifət deyəndə, ölkədə bir ana müxalifət var və o da Müsavatdır".

Müsavatçı funksioner Ə.Kərimlinin və ətrafının insanlara yalan danışdığını, çaşqınlıq yaratmaq istədiyini də iddia edib. O, bu iddiasını belə əlaqələndirib ki, AXCP və "Milli Şura" aksiyalar keçirmək istəyərkən, müsavatçıların tədbirlərinə əngəl yaratmağa cəhd göstərirlər: "Yəni insanları aldatmaq, çaşdırmaq, yanlış rəy formalaşdırmağa yönələn siyasət yürüdürlər".

### ADP sədri Sərdar Cəlaloğludan AXCP-"Milli Şura" və Müsavat rəhbərliyinə ittiham: "Bu xəstəlik hələ də onlarda qalmaqdadır"

Bu arada AXCP və Müsavat arasında yaşanan yeni və daha gərgin böhrana digər müxalifət partiyalarından da münasibətlər bildirilməkdədir. Belə ki, ADP sədri S.Cəlaloğlu AXCP-nin və Müsavatın arasındakı qarşıdurmaları önə keçmək istəyinin ifadəsi kimi qiymətləndirib. ADP sədri də də hesab edir ki, müxalifət birincilik uğrunda mübarizə aparır: "...Ayrı-ayrı partiyaların bir-biri ilə "ana müxalifət mənəm" yarışı keçirməsi lazım deyil...Azərbaycan müxalifətinin bu xəstəliyi hələ də qalmaqdadır. Təbii ki, bu da çox yanlış addımdır".

Cəlaloğlu əlavə olaraq, qeyd edib ki, öz aksiyalarında insanların sayını şişirtməklə siyasi reytinq qazanmağa cəhd etmək yanlışlıqdır. Beləliklə, görünən budur ki, artıq hər iki radikal və dağıdıcı müxlaifət partiyaları arasındakı münasibətlər açıq savaş həddinə doğru inkişaf edib və bu dəfə həmin savaşdan heç birinin salamat şəkildə çıxacağını demək olmaz.

***Rövşən RƏSULOV***

## "Günəşli" yatağında baş verən yanğının söndürülməsi işləri davam etdirilir



Sentyabrın 26-da "Azneft" İB-nin "28 May" adına NQÇİ-nin "Günəşli" yatağının 19-cu özülündə 71 saylı quyuda təmir işləri aparılarkən qaz təzahürü meydana çıxmış və açıq fontana çevrilib. Fövqəladə Hallar Nazirliyinin və SOCAR-ın AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, saat 18:00 radələrində fontanın bağlanması ilə bağlı aparılan işlər zaman qaz təzahürünün ani alışması nəticəsində yanğın baş verib. DYMX-nin yanğınsöndürən-xilasedriciləri özüldə olan 69 nəfəri dərhal "Vixr-5" yanğınsöndürmə gəmisinə təxliyyə ediblər.

Hazırda SOCAR və digər aidiyyəti qurumlarla birgə yanğının söndürülməsi işləri davam etdirilir. Əlavə məlumat veriləcək.



## Gömrükçülər iki fakt üzrə 23 mindən artıq siqaret aşkar edib

Xaçmaz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan əməliyyat məlumatı əsasında Rusiya Federasiyası istiqamətindən "Xanoba" gömrük postunun idxal nəzarəti zonasına daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi minik avtomobilinə baxış keçirilib. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yoxlama zamanı avtomobilin salonunun müxtəlif yerlərindən gömrük nəzarətindən gizlədilən 2 adda 10 min 350 ədəd siqaret aşkar edilərək götürülüb. "Xanoba" gömrük postunda Rusiya Federasiyası istiqamətindən ölkəmizə daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi daha bir minik nəqliyyat vasitəsindən isə 13 min ədəd siqaret aşkar olunub. Siqaretlər avtomobilin salonunda və yük yerində gömrük nəzarətindən gizlədilmiş şəkildə yerləşdirilsə də gömrükçülərin diqqətindən yayınmayıb. Hər iki faktla bağlı araşdırma aparılır.

***Avropanın bir sıra qurumları Azərbaycanla bağlı qərəzli iddialar irəli sürməkdə davam edirlər. Son olaraq Venesiya Komissiyası sentyabrın 26-da keçirilməsi nəzərdə tutulan referendum ilə bağlı süni arqumentlərlə dolu rəy hazırlayıb. Bu sənədin sürətlə və vaxtından xeyli əvvəl ortaya çıxarılması göstərir ki, yenidən kimlərsə Azərbaycana qarşı böhtan kampaniyasına başlayıb. Təcrübə göstərir ki, belə hallar, adətən, ölkəmiz ciddi uğura nail olduqda baş verir. Referendum da Konstitusiyada əhəmiyyətli dəyişiklikləri həyata keçirmək məqsədi ilə keçirilir. Bundan əlavə, Prezident İlham Əliyev Avropa Parlamenti nümayəndələrini qəbul edən zaman bu təşkilatın Azərbaycana qarşı tutduğu mövqenin ədalətli olmaması ilə bağlı maraqlı faktlar açıqlayıb.***



# Növbəti "qara piar" kampaniyası:

# Qərb yenə yanlış yolda

## Əsassız arqumentlər: Avropa Parlamentinin səhv addımları

Azərbaycanda əhəmiyyətli hadisələrin keçirilməsi ərəfəsi bəzi xarici dairələr xeyli fəallaşır. Son illərin təcrübəsində buna dəfələrlə rast gəlinib. Adətən, uğurlu iqtisadi addım atıldıqda (məsələn, iri enerji layihəsi haqqında razılıq əldə edildikdə), milli dövlətçiliklə bağlı önəmli islahatın aparılmasını nəzərdə tutan tədbir təşkili edildikdə (deyək ki, idarəetmədə ciddi dəyişiklik paketi reallaşanda), yaxud böyük beynəlxalq tədbir (misal olaraq, "Avroviziya" musiqi yarışmasını və ilk Avropa Oyunlarını göstərmək olar) keçirildikdə, hansısa dairələr ciddi narahatlıqlar keçirirlər. Bu kimi hallara müəyyən mənada alışmışıq.

Hər dəfə də onlar xalqdan lazımi cavablarını alırlar. Azərbaycan cəmiyyəti daim sübut edir ki, hakimiyyətlə bir yerdədir və onun həyata keçirdiyi islahatları tam dəstəkləyir. Maraqlıdır ki, buna baxmayaraq, həmin dairələr yenə də əvvəlki səhvlərini, yanlış əməllərini davam etdirirlər.

Bu dəfə bir sıra məqamlar Prezident İlham Əliyevin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətinin üzvləri ilə görüşü zamanı üzə çıxıb. Daha doğrusu, Azərbaycan rəhbəri konkret faktlarla sübut edib ki, Qərbin bir sıra dairələri Azərbaycana qarşı qərəzli mövqe tutur və buna son qoyulmalıdır. Rəsmi Bakı belə vəziyyəti qəbul edə bilməz (bax:Prezident İlham Əliyev Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul edib / AZƏRTAC, 20 sentyabr 2016).

Məsələ Azərbaycanda sentyabrın 26-da Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı keçiriləcək ümumxalq səsverməsi ilə bağlıdır. Bu tədbir ərəfəsində yenə də Avropadan müxtəlif xarakterli ittihamlar səslənməyə başlayıb. Bəzi Avropa qurumları Azərbaycanı insan haqlarının, demokratik idarəetmə prinsiplərinin pozulmasında günahlandırıb. Faktlar isə bunların tam əsassız olduğunu göstərir. Ölkə başçısı bu kontekstdə "Fredoom House"un bədnam hesabatlarındakı ağ yalanları dəqiq surətdə açıb göstərib.

Bu təşkilat Azərbaycanın azad olmadığından dəm vurur. İnternet sahəsində isə qismən azadlığın olduğunu iddia edir. Hətta son 10 ildə Azərbaycanın Avrasiya məkanında ən geridə qalan ölkə olduğundan yazır. Prezident İlham Əliyev haqlı olaraq bu kimi yalanlarla dolu üzdəniraq hesabatların Azərbaycan üçün heç bir əhəmiyyətinin olmadığını, eyni zamanda, onların gülünc olduğunu vurğulayıb (bax: əvvəlki mənbəyə).

Doğrudan da, Azərbaycan son 10 ildə postsovet məkanında ən sürətlə inkişaf edən və daim islahatlar aparan ölkədir. Onun həyata keçirdiyi və müxtəlif sahələri əhatə edən proqramlar haqqında beynəlxalq təşkilatlarda yüksək səviyyəli fikirlər ifadə edilib. Hər kəs qəbul edir ki, Azərbaycan Cənubi Qafqazın lider dövlətidir. Azərbaycan Respublikasının Prezidenti "Böyük İyirmiliy"in (G20) sammitinə dəvət edilir. "Yeni İpək Yolu" layihəsində Bakının iştirak etməsi üçün xüsusi səylər göstərilir və səmərəli əməkdaşlıq əlaqələri qurulub.

## Ədalətsizliyin izi ilə: Qərb niyə dəyişmir?

Bundan başqa yüzlərlə faktlar var ki, "Fredoom House"un nə dərəcədə qərəzli, əsassız və böhtançı mövqedə olduğunu təsdiq edir. Ermənistan kimi təcavüzkar, heç bir islahat aparmayan, qonşularına qarşı əsassız iddialar irəli sürən bir ölkə haqqında susan bir təşkilat hansı haqla Azərbaycanın uğurlarına kölgə salmağa çalışır? Hamıya məlumdur ki, uzun müddət ona rəhbərlik etmiş Devid Kramer cənabları sırf ermənipərəstlik edir. Bu halın indiyə qədər qalması acı təəssüfdən başqa hiss doğura bilməz. Məsələ yalnız bununla məhdudlaşmır.

Ölkə başçısı Avropa Parlamentinin nümayəndə heyətinə digər faktlardan bəhs edərək, əsl demokratiya və humanizm dərsi verib. İlham Əliyev ATƏT-in Bakı ofisinin keçmiş rəhbəri Aleksis Şahtaxtinskinin vəzifəsindən azad edilməsini əsassız və qərəzə adlandırıb. O, ABŞ-ın ATƏT-dəki nümayəndəsinin ciddi müdaxiləsi ilə, Prezident İlham Əliyevlə birgə şəkil çəkdirdiyinə görə, Fransa Xarici İşlər Nazirliyindəki və ATƏT-dəki işindən uzaqlaşdırılıb.

Dövlət başçısı bu qədər gülünc bir hadisənin qəbuledilməz olduğunu açıq deyib. Azərbaycan rəhbəri əsl siyasi lider kimi davranaraq, zərər çəkmiş insanın hüquqları bərpa olunmayınca, ATƏT-in Bakı ofisinin bağlı qalacağını bəyan edib. Azərbaycan Prezidenti konkret ifadə edib: "Əgər ABŞ-ın ATƏT-dəki nümayəndəsinin fikrincə mənimlə şəkil çəkdirmək cinayətdirsə, biz nədən danışa bilərik?! Mən nə dedim? Mən dedim ki, əgər Şahtaxtinski işdən azad olunsa, ofis bağlanacaq. Mən onlara xəbərdarlıq etdim, onlar qulaq asmadılar və biz bunu etdik. İndi onlar ofisin fəaliyyətini bərpa etmək istəyirlər. Mən şərt qoydum. Şahtaxtinskini geri qaytarın, ədaləti, onun karyerasını bərpa edin və o zaman biz ofisi yenidən açarıq. Bütün bunların arxasında duran məsələ bundan ibarətdir" (bax: əvvəlki mənbəyə).

Təsəvvür edin, demokratiyadan və insan haqlarından dəm vuranlar hətta ATƏT-də məsul vəzifədə çalışan insana qarşı antidemokratik davranmağı özlərinə rəva bilirlər. Cinayətkar erməni separatçıları ilə foto çəkdirən Aİ və ATƏT rəsmiləri barədə söz deyən yoxdur. Müstəqil dövlətin başçısı, siyasi liderliyini dünyaya çoxdan sübut etmiş Azərbaycan Prezidenti ilə şəkil çəkdirən, milliyyətcə azərbaycanlı olan, dövlətçiliyimizdə rolu olan tanınmış ailənin nümayəndəsini ATƏT-dən uzaqlaşdırırlar?!

Budurmu söz azadlığı, insan haqları nümunəsi? Xocalıda qadın, uşaq və qocaları qətlə yetirən birisinin erməni dövlətinə rəhbərlik etməsinə tam normal yanaşılır, ancaq Şahtaxtinskinin öz xalqının tanınmış siyasətçisi, dövlət başçısı, həqiqi lideri ilə birgə şəkil çəkdirməsində "antidemokratiya elementi" görmək kimi ləyaqətsiz addım atılır! Prezident İlham Əliyevin bu cür addımlara əsl vətənpərvər, milli ruhlu insan kimi cavab verməsi təbii ki, hər bir Azərbaycan vətəndaşına qürur verir. Azərbaycanlılar öz Prezidentlərinin yanındadırlar.

Ölkə başçısı belə faktları vurğulamaqla yanaşı, Avropa Parlamentinin təcavüzkar Ermənistana münasibətdə lazımi qətiyyəti göstərmədiyinə də işarə edib. İrəvanın işğalçı siyasəti ucbatından münaqişənin indiyə qədər həll edilməməsi təsadüfi deyil. Buna baxmayaraq, Azərbaycan yenə də Avropa İttifaqı ilə əlaqələrini inkişaf etdirir. Ölkə rəhbəri bu kontekstdə bildirib: "Avropa Parlamenti ilə münasibətlərdə böhran vəziyyətinin əmələ gəlməsinə baxmayaraq, Avropa İttifaqı ilə əlaqələr qarşılıqlı maraq əsasında uğurla inkişaf edir" (bax: əvvəlki mənbəyə). Bu, rəsmi Bakının ardıcıl, stabil və düşünülmüş mövqedə olduğunu bir daha təsdiqləyir. Avropa Parlamentindən fərqli olaraq, Azərbaycan heç bir tərəddüdlərə yol vermədən siyasi kursunu qətiyyətlə davam edir. Avropalı parlamentarların bundan lazımi nəticə çıxarması üçün zaman çoxdan yetişib.

Nəhayət, sonda bir vacib məqamın da üzərində dayanmaq istərdik. Venesiya Komissiyası Azərbaycanda Referendum Aktının layihəsi barədə qəribə bir rəy verib. Referendum keçirilməmiş, Konstitusiyada ediləcək dəyişikliklər tam dərk edilməmiş bu mötəbər qurum əsassız iddialarla dolu hesabat hazırlayıb. Bu rəy barədə fikir bildirən Azərbaycan tərəfi konkret faktlarla oradakı yalanları ifşa edib.

Yuxarıda vurğulananlar nəyi ifadə edir? Qərbdə bir sıra dairələr Azərbaycanın müstəqil dövlət quruculuğu işində növbəti uğuruna kölgə salmaq üçün dəridən-qabıqdan çıxırlar. Lakin onlar bu dəfə də məyus olacaqlar. Çünki Azərbaycana qətiyyətli, vətənpərvər, qeyrətli və güclü siyasi lider olan İlham Əliyev rəhbərlik edir!

**Newtimes.az**

# Heç bir ABŞ və Qərb siyasi dairələri Azərbaycanı demokratiya yolundan döndərə bilməz!

*Sifarişli yazılar, uydurma hesabatlar verməklə Azərbaycanı gözdənsalma, antidemokratik ölkə kimi qələmə vermə cəhdləri heç vaxt baş tutmayacaq*

***Birmənalı şəkildə etiraf etmək lazımdır ki, son onillikdə baş verən "rəngli inqilablar" və "ərəb baharı" dalğalarının faciəvi təzahürləri, yeni parçalanmış dövlətlər, böyük ərazi itkiləri, səfalət, siyasi böhran və digər bu kimi acı gerçəkliklər ABŞ və Qərbi Avropa siyasi dairələrinin, eləcə də onların iqtisadi-siyasi güclərinin fəaliyyətinin nəticələridir. "Demokratiya ixracı" adı altında, əslində, bu bölgələr savaşa, iqtisadi tənəzzülə, siyasi konfrantasiyaya sürükləniblər. Bu dövlətlərə ixrac olunan isə demokratiya yox, onları siyasi vassala çevirən qaydalar olub. Psixoloji manipulyasiya yolu ilə aqressivləşən və qanuni hakimiyyətlərinə qarşı zorakılığa sövq edilən kütlələr sonda bu "inqilabların" qurbanına çevriliblər.***



## Erməni lobbisinin təşəbbüsləri və maliyyələri nəticəsində Azərbaycana qarşı çirkin niyyətli hücumlar baş qaldırır

Hər kəsə kifayət qədər bəllidir ki, ABŞ və Qərbin siyasi dairələri Azərbaycanda da bu cür "demoklratik mühit" qurmağa cəhdlər göstərirlər. Halbuki ölkəmizdə mövcud olan demokratiya və plüralizm, söz və ifadə azadlığı hər zaman öz üstünlüyü ilə seçilib. Ölkəmizdə yürüdülən mütərəqqi siyasət və bu siyasətin məntiqi nəticəsi olaraq əldə edilən uğurlar xarici dairələrin qıcıqlanmasına, narahat olmalarına səbəb olmaqdadır. Xüsusilə, erməni lobbisinin təşəbbüsləri və maliyyələri sayəsində Azərbaycana qarşı çirkin niyyətli hücumlar baş qaldırır. Nəticədə, biz bir sıra dırnaqarası müxalifət "liderlərinin" radikal və dövlətçilik əleyhinə çıxışları, xüsusilə, AXCP və "Milli Şura"nın, o cümlədən, Müsavat partiyasının qondarma aksiyalarının da arxasında ABŞ, Böyük Brtitaniya, Fransa, Avropa İttifaqının diplomatik nümayəndələrinin dayanmasının şahidi olduq. Biz əvvəllər bundan daha sərt kampaniyalarla qarşılaşmışdıq. Avropa Oyunları, "Avroviziya" Mahnı Müsabiqəsi ərəfəsində bu kampaniyaları daha da fəallaşdırdılar. İndi hansısa qəzetdə çıxan iki məqalə, heç bir diqqət cəlb etməyən dinləmə Azərbaycan hökumətini seçdiyi yoldan döndərə bilməz.

Fakt budur ki, istər daha öncələr, istərsə də hazırkı məqamda - ölkəmizdə referendumla bağlı keçirilən ümumxalq seçkilərində ABŞ və Qərbin Azərbaycana qarşı həyata keçirməyə çalışdığı kampaniyanın heç bir nəticəsi olmadı. Çünki Azərbaycan artıq əvvəlki Azərbaycan deyil. Ölkəmizin mövqeləri də kifayət qədər möhkəm əsaslara, xüsusilə xalq-hakimiyyət birliyinə əsaslanıb.

## Görəsən, "The Washington Post" ABŞ-dakı irqi ayrı-seçkilikdən, polis vəhşiliyindən, jurnalistlərin elementar informasiya əldə etmək hüququnun məhdudlaşdırılmasından niyə yazmır?

ABŞ-da baş verən bəzi faktlara nəzər salaq: 2010-cu ildə "ABŞ jurnalistikasının vicdanı" adlandırılan qocaman jurnalist Helen Tomas sosial şəbəkələrdə ABŞ-ın İraq siyasətini və İsrailin Fələstini işğal etməsini sərt tənqid etmişdi. Bundan sonra onun Ağ Evə akkreditasiyası ləğv olunmuşdu və jurnalist karyerası da, faktiki olaraq, bağlanmışdı. 2012-ci ildə 23 yaşlı Dmitri Dyatlov öz bloqunda vitse-prezident Cozef Libermanı hədələdiyinə görə, 2006-cı ildə bloqçu Hel Terner Çikaqonun üç məhkəmə hakimini sərt tənqid etdiyinə görə, elə həmin il bloqçu Vikram Budhi Buş ailəsi haqqında tənqidi material verdiyinə görə, 34 yaşlı Yeklişa Ştorm isə polisin gizli agentlərinin adlarını açıqladığına görə həbs olunmuşdular.

Azərbaycanla bağlı ardıcıl qərəzli materiallar dərc edən "The Washington Post" nəşri və "The Huffington Post"un müxbirləri Uesli Loveri və Rayan J. Reilly yaxınlıqdakı restoranda oturarkən, polis tərəfindən nəzarət altına alınıblar. Görəsən, "The Washington Post" ABŞ-dakı irqi ayrı-seçkilikdən, polis vəhşiliyindən, jurnalistlərin elementar informasiya əldə etmək hüququnun məhdudlaşdırılmasından niyə yazmır? Yəni onlar gözlərinin önündə o qədər problemlər olduğu halda, Azərbaycanı hansısa məsələlərə görə tənqid edə bilməzlər. Beləliklə, ABŞ və Qərbin erməni lobbisinin sayəsində aldıqları qərəzli sifarişləri heç bir effekt verməyəcək.

Böyük Britaniyanın "The Guardian" qəzeti də bu çirkin kampaniyaya qoşulub antiazərbaycançı şəbəkənin tapşırıqlarını yerinə yetirməklə məşğuldurlar. Antiazərbaycançı dairələr, o cümlədən, "The Washington Post", "The Guardian" kimi ruporlar anlamalıdırlar ki, ölkəmizdə insan və vətəndaş hüquqları hansısa qüvvələrin maraqları əsasında yox, milli dövlətimizin konstitusiya tələblərinə görə qorunur. Azərbaycan demokratik dəyər və təsisatların təşəkkül tapdığı müasir hüquqi dövlətdir.

## Azərbaycana qarşı bəzi dairələrin apardığı istənilən çirkin kampaniya iflasa məhkumdur

Amma nə yazıq ki, bir sıra ABŞ-a bağlı ermənipərəst qeyri-hökumət təşkilatları antiazərbaycançı şəbəkənin təsiri altına düşüb, ölkəmiz haqqında mənfi imic formalaşdırmaqla məşğuldurlar. Azərbaycanın hərtərəfli inkişafına qısqanclıqla yanaşan "Freedom House", "Human Rights Watch", "Amnesty International" kimi təşkilatları yalan informasiya ilə təmin edən həmin QHT-lər daim Azərbaycana qarşı aparılan qərəzli kampaniyaların fəal iştirakçıları olurlar. Bu, artıq bütün Azərbaycan ictimaiyyətinə bəllidir. Ümumiyyətlə, diqqət yetirsək, görərik ki, Azərbaycana qarşı son günlər başlanmış çirkin kampaniya haradan qaynaqlanır və tapşırıqlar xüsusi olaraq hansı dairələrə, kimlərə həvalə olunub.

Beləliklə, bir daha deyə bilərik ki, ölkəmizdə insan hüquqlarının etibarlı müdafiəsinə yol açan, vətəndaş cəmiyyətini inkişaf etdirən və mökəmləndirən həm qanunvericilik bazası, konstitusiya, həm də yüksək siyasi iradə var. Belə ki, Azərbaycanda daxili siyasət kursunun mühüm istiqamətlərindən biri demokratik təsisatların təkmilləşdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsidir. Ona görə də Azərbaycana qarşı bəzi dairələrin apardığı istənilən çirkin kampaniya iflasa məhkumdur. Sifarişli yazılar, uydurma hesabatlar verməklə Azərbaycanı gözdənsalma, antidemokratik ölkə kimi qələmə vermə cəhdləri heç vaxt baş tutmayacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

# Əli Kərimli ilə Arif Hacılı özlərini alçaldırlar

*"AXCP ilə Müsavat arasındakı düşmənçilik hər iki partiyanın dağılmasına gətirib çıxaracaq"*



Bu gün heç kəsə sirr deyil ki, AXCP ilə Müsavat arasındakı düşmənçiliyin gərgin xarakter alması sıravi üzvlər arasında istefaların baş verməsinə gətirib çıxarır. Ötən gün "Milli Şura"nın və AXCP-nin üzvü Sahib Kərimlinin də istefası iki partiya arasında mövcud olan gərgin qarşıdurmaların nəticəsidir. Proseslərin bu formada davam edəcəyi təqdirdə, AXCP və Müsavatdan kütləvi istefaların daha geniş xarakter alacağı istisna edilmir. AXCP Ali Məclisinin keçmiş üzvü, Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "SƏS" qəzetinə açıqlamasında AXCP ilə Müsavat arasındakı düşmənçiliyin hər iki partiyanın dağılmasına gətirib çıxaracağını bildirdi: "Ataların belə bir məsəli var: iki qoçun başı bir qazanda qaynamaz. Düzdür, bunlar qoç olmasalar da, hər halda, pis-yaxşı hərəsinin bir başı var. Xaricdəki məkrli qüvvələr həm AXCP-dən, həm də Müsavatdan öz maraqları üçün istifadə edirlər. Belə olan halda da, AXCP və Müsavat ayrı-ayrılıqda çalışır ki, bundan özlərinə daha çox imic toplasınlar, xal qazansınlar və həmin xarici qüvvələrin gözündə başları uca olsun. Ona görə də, AXCP ilə Müsavat istər-istəməz hərəsi müxtəlif variantlar fikirləşirlər - nə etsinlər ki, xaricdəki qüvvələrin onlara olan inamları artsın və bununla da daha cox maliyyə yardımları ala bilsinlər. Bu baxımdan, AXCP ilə Müsavat xarici qüvvələrin gözündə daha yüksək olması üçün əllərindən gələni edirlər".

T.Novruzovun sözlərinə görə, Ə.Kərimli və A.Hacılı belə yersiz hərəkətlərə əl atmaqla, özlərini daha da alçaldaraq, gözdən salırlar: "Bu gün AXCP və Müsavat funksionerləri çox gözəl bilirlər ki, onların nə etmələrindən asılı olmayaraq, heç vaxt öz istəklərinə çata bilməyəcəklər. Belə olan halda, bu kimi qüvvələrin yeganə çıxış yolu müxalifət fonundan çıxış edərək, xaricdə olan qüvvələrdən pul qoparmaqdır. Burada da kimin daha çox xaricdən pul qoparmaq məsələsi var. Yəni pul əldə etmək üçün Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı və C.Həsənli arasında mübarizə gedir və bu mübarizə də düşmənçiliyə gətirib çıxarır". T.Novruzov onu da bildirdi ki, bu gün özünü müxalifət kimi təqdim edən qüvvələrin bütün fəaliyyətinin arxasında xarici qüvvələrin dayandığı birmənalıdır: "Məsələ burasındadır ki, hər zaman Azərbaycanda seçkilərin keçirildiyi bir məqamda, müxalifət qüvvələri reallığı özündə əks etdirməyən məsələləri gündəmə gətirərək aksiyalar keçirirlər. Təbii ki, həmin aksiya keçirmək istəyən qüvvələrin arxasında duranlar da, məhz xarici qüvvələrdir. Deməli olar ki, məhz xarici qüvvələrin sifarişi ilə müxalifət təmsilçiləri aksiyalar keçirir ki, ölkədə nə isə xoşagəlməz bir vəziyyət yaratsınlar. Amma hər zaman olduğu kimi, bu dəfə də həm xarici qüvvələr, həm də müxalifət təmsilçiləri istəklərinə çatmayacaqlar. Çünki xalqımız bu şəxslərin necə məkrli və yaramaz olduqlarını çox gözəl bilirlər".

**GÜLYANƏ**

# Azərbaycanda “demokrat”ların referendum qorxusu: sildilər, amma alınmadı

***Dünən Azərbaycan Konstitusiyasına əlavələr və dəyişikliklərlə bağlı ümumxalq referendumu keçirildi, xalq da gələcəyinə səs verdi.***

Təbrizdən tutmuş, Londona; Vaşinqtondan tutmuş, Pekinədək səfirliklərimizdə səsvermə oldu. Azərbaycanda milyonlarla vətəndaş mövqeyini bildirdi ki, onların arasında 116 yaşlı Balakən sakini Fatma Səməddinova, 105 yaşlı qusarlı 105 yaşlı Bəsbəyi Döndərova, 100 yaşlı ağdamlı Şəkər Əhmədova da vardı.




## Dərs olmadı

820-ci ildə Səmərqənddə Əhməd Abbas və Abdulla Hakim adlı iki şəxs varmış. Bu insanlar gecələr şəhərin mərkəzindəki bazarın yaxınlığında yerləşən evlərin divarlarına Səmərqənd qazisi, sonralar ən böyük müsəlman alimlərdən biri kimi tanınacaq Əbu Hətim Məhəmməd ibn Hibban barədə “azad fikir”lərini yazar, şəhər sakinlərini də öz fikirlərini divara yazmağa dəvət edərdilər. Səhərlər o divarlarda ibn Hibbanı yamanlayan sözlər həmişə qazini tərifləyən, ondan razılığa dəlalət edən kəlmələrdən dəfələrlə az olardı. Şər qarışandan sonra isə Əhmədlə Abdulla o divarlardakı razılıq yazılarını pozardılar ki, qazidən “kütləvi narazılıq” görüntüsü yaransın.

Səmərqənd qazisi olmuş ibn Hibban divarda “əməliyyat”lar aparanlar tutulandan sonra onlara toxunmamış və demişdi: “Belələri beyinlərini zəhərləyiblərsə, özlərinə ən ağır cəzanı veriblər”.

Tarix təkrarlanır, amma Azərbaycanda müəyyən kəsim tarixi deformasiya olunmuş vəziyyətdə bir daha yaşatmaq istəyir. Əfsuslar olsun ki, hər addımı səhv olan bu insanlara yanlışlıqlarının sonucları dərs olmur, onlar hər dəfə yıxılandan sonra büdrəmələrinin səbəbini araşdırmaq əvəzinə, uğursuzluqlarının vəsiləsini az qala Pataqoniyadakı insanların folklorunda arayırlar. Halbuki hər şey bəsitdir: onların yalan danışmaqdan əl çəkmələri yetər ki, həqiqəti görsünlər.

## Göbbelsdən bəhrələnməyin primitiv nişanəsi



“Xalqımız referendumu hamılıqla boykot edir. Seçki məntəqələrində tam bir sükunətdir”. Bu sözlər AXCP sədri Əli Kərimliyə məxsusdur. Əslində, özünü müxalifət lideri sayan və tərəfdarlarının səyləri ilə belə illüziyadan qurtula bilməyən şəxs başqa söz deyə də bilməzdi və ondan reallığı əks etdirən, qərəzi və ambisiyaları nümayiş etdirməyən kəlmələr gözləmək də sadəlövhlük olardı. Onun dediklərini ölkə müxalifətinin “birliyi” təki təqdim olunan, amma faktiki sadəcə, AXCP və normal müxalifətçilərin qəbul etmədikləri siyasət marginallarından ibarət olan “Milli Şura”nın sədri Cəmil Həsənli də təkrarlayıb, “xalqın kütləvi şəkildə referenduma getməkdən imtina etməsi” barədə müsahibə verib.




Əli Kərimli və Cəmil Həsənli bəyanatlarını səsləndirməzdən, habelə Facebook-da paylaşmazdan əvvəl həmişəki kimi, emosiyaların məntiqi üstələməsi sindromunun canlı nişanəsinə çevriliblər. Nədən ki, bu gün səhər saatlarından etibarən Azərbaycanın kütləvi informasiya vasitələri bir yana (AXCP sədri və “Milli Şura”nın liderinin könülləri xoş olsun deyə, onları hələlik nəzərə almayaq) - Rusiya, Gürcüstan, Ukrayna, İran, Türkiyə, Britaniya, Almaniya, İspaniya, İtaliya - bir sözlə, ən müxtəlif ölkələrin telekanalları və nüfuzlu informasiya saytları Azərbaycanda referendumun gedişatı barədə reportajlar yayımladılar. Həmin reportajlarda isə seçki məntəqələrinin qarşısında növbə gözləyən insanlar vardı. Gərçi “xalq kütləvi şəkildə imtina edibsə”, bəs bu insanlar kimlərdir?! Əli Kərimli və Cəmil Həsənli, habelə bu şəxslərin sosial şəbəkələrdəki “mürid”ləri suala, çətin ki, məntiqli cavab verə bilsinlər.

Onların açıqlamalarındakı digər məntiqsizlik, daha doğrusu, bilərəkdən yol verilən saxtakarlıq isə odur ki, AXCP sədri və “Milli Şura” lideri bu gün səhər saatlarında “kimsə referenduma gedib səs vermədi” söylədilərsə, günorta saatlarında “referenduma çoxlu insan qatıldı: onlar da iqtidarın adamları idilər” söylədilər. Marazm o səviyyəyə çatdı ki, hətta Bakının iki qəsəbəsində “məktəblilərin səs verdiyi” barədə açıqlamalar səsləndi.

Yetkinlik yaşına çatmayan, səsvermə hüququ olmayan məktəblilərin “səs verməsi” ilə bağlı heç bir dəlil, sübut və fakt yoxdur, bu absurd ümumiyyətlə mümkün ola bilməz - amma nə olsun, radikal müxalifətin lüğətində “məntiqsizlik” kəlməsi hələ 25 il əvvəl çıxdaş sözlər sırasına daxil edildiyindən, Azərbaycan Konstitusiyasına əlavələr və dəyişikliklərlə bağlı referenduma qatılan xalqı, hər bir vətəndaşımızı ləkələmək, Qərbdəki sifarişçilərə yarınmaq üçün istənilən vasitəni məqsədə çatmaq üçün məqbul sayan “müxalifət liderləri” həmişəki amplualarındadır.






Nasist Almaniyasının təbliğat naziri Yozef Göbbelsin “mümkün qədər çox yalan danışın, bəlkə, inandılar” ifadəsindən, deyəsən, müxalifətdəki bəzi şəxslər bəhrələnməyə çalışırlar. Di gəl, bəhs etdiyimiz bəhrələnmə olduqca primitiv, bəsit formada olduğundan aşkar yalanları pərdələmək mümkün deyil.

Ardı Səh. 22

# Azərbaycanda "demokrat"ların referendum qorxusu: sildilər, amma alınmadı

Əvvəli səh.21-də

## "Demokratiya hesabı": 364 də 173 ola bilər



Azərbaycan müxalifətinin aqressiv və radikal qisminə daimi dəstəyi, ölkəmizin ünvanına böhtanların sıralanması ilə xüsusi "fərqlənən" Meydan TV bu dəfə də taktikasına sadiq qaldı.

Saytda yaradılmış "Referendum xəbərləri: Meydan TV-də canlı bloq" informasiya bülleteninin şərhlər bölməsində fikirlərini bildirən şəxslərin yazdıqları çox ciddi senzuraya məruz qaldı. Belə ki, dünən ikindi saatlarında həmin bölmədə 290 şərh vardısa, az sonra o şərhlərin sayı 173-ə endi.

Çünki Meydan TV saytının redaksiyası referendum barədə yalnız yalan, hədyan yazanları, ancaq neqativ reaksiyanı nümayiş etdirənləri məhrəm bildiyindən, onların şərhləri toxunulmaz saxlandı.

"Məktəblilərin səs verdiyi" iddiasında adı hallanan seçki məntəqəsində səs verən insanlardan tutmuş, referenduma qatılan və Meydan TV-nin yalanlarını faş edərək gerçəklər barədə olduğu kimi yazan şəxslərin şərhləri silindi. Fasiləsiz olaraq insan haqları, demokratiya, vətəndaş cəmiyyəti prinsiplərindən yazdığını iddia edən Meydan TV obyektiv şərhlər yazanların haqlarını pozdu, demokratiyanın təməl tələblərini qulaqardına vuraraq fikir azadlığı ilə mövqe plüralizmini təmin etməkdən boyun qaçırdı, vətəndaş cəmiyyətinin ümdə prinsipi olan söz demək və yazmaq sərbəstliyini tapdaladı. Sonucda Meydan TV-də "canlı bloq" canını itirib vücudu saxlanmış bloqa çevrildi və orada yalnız referendumu pisləyən, xalqın seçiminə həqarət edən, səsverməyə qatılan vətəndaşlara ən yaxşı halda kinayəli ibarələrin ünvanlandığı şərhlər saxlandı.

## "Azadlıq"da fikir diktaturası

"Azadlıq" radiosu da "qan qardaşı" olan Meydan TV-dən uzaq getmədi. "Azadlığ"ın saytında və Facebook-dakı səhifəsində də referendumla bağlı reallığı əks edirən, obyektiv şərhlər sanki senzura tozsoranı ilə silinir. Yalnız müxalifətin absurd açıqlamalarının dəstəkləndiyi, referendumda səs verən insanların pisləndiyi və ümumiyyətlə, səsvermə prosesinin qaralandığı şərhlər saxlanılır.

Məqsəd aydındır: "Azadlıq" radiosu və Meydan TV söz azadlığı, vətəndaşların hüquqlarının təminatı ilə bağlı kakafoniyaya çevrilən bəyanatlarını sıralasalar da, gerçək tam əksinə dəlalət edir: bu strukturlar Azərbaycanda bu gün keçirilən referendum barədə maksimal dərəcədə yalan, irreallıq yaymaq, səsvermənin baş tutmaması və eyni zamanda baş tutub müxalif fikirli insanların mövqe izharından guya "kənarlaşdırılması" barədə insinuasiyaları tirajlamaqla məşğuldur. Referendum başlanmazdan çox-çox əvvəl, hələ iyul ayının ortalarında ABŞ və Avropa Birliyindəki bəlli strukturlar Azərbaycanda planlaşdırılan səsvermə haqqında dezinformasiyalar yaymağa başlamışdılar.

Zaman keçdikcə o proses sürətləndi, ABŞ Konqresinin Nümayəndələr Palatasındakı Tom Lantos komissiyasında dinləmələr, daha sonra Strasburqdakı müzakirələr, sonucda BMT təmsilçisinin və Venesiya komissiyasının qərəzli bəyanatları - bunu avropalı ekspertlər də etiraf etdilər - sıralandı.

Belədə Meydan TV ilə "Azadlıq" radiosunun Azərbaycan xidmətinin fərqli, daha doğrusu, obyektiv mövqe tutacağına ümid etməyə belə, dəyməzdi. AXCP sədrinin və "Milli Şura" liderinin Facebook-da tərəfdarları kimi təqdim olunan "trol"lardan fərqli olaraq, şərhləri silinənlər real insanlardır. O insanlar ki, reallıqdan bəhs edirlər, yalan və hədyanlara etiraz edirlər.

...Dünyanın ən nüfuzlu təhsil müəssisələrindən biri sayılan İton Kollecinə 1965-1978-ci illərdə rəhbərlik etmiş baron Harold Kaçça Britaniya müxalifətinin reallığı qəbul etmədiyindən gileylənərək "Gerçəyi yalnız müxalifətçi olduğuna görə bilməyənlər məntiqin sinfində qalanlardır" söyləmişdi.

Maraqlıdır, baron Kaçça indi Azərbaycanda özlərini "demokratiya daşıyıcıları" adlandıranların yalanlarını tirajlamaq üçün həqiqəti qəbul etməyənləri, habelə ölkədən çox uzaqda "redaksiya" yaradıb ölkəni hədəfə alanları görsəydi, nə deyərdi?!.

***Orxan Hun***
***Milli.Az***

# Anti-azərbaycançı qüvvələr ölkəmizdə vəziyyəti gərginləşdirmək üçün yenidən hərəkətə keçib

***Bu gün yaxın regionlarda baş verən hadisələr, bir daha onu təsdiqləyir ki, imperialist qüvvələr müstəqil siyasət yürüdən milli dövlətləri dağıtmaq, kölə halına salmaqda cəhdlər göstərirlər. Bunun üçün isə bütün imkanlardan istifadə edirlər. Bununla bağlı Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, "Bizim işimizə qarışmaq istəyənlərin sayı da az deyil. Bu illər ərzində müxtəlif dövrlərdə bizim işimizə qarışmaq istəyənlər öz məqsədlərini güdürdülər. O məqsədlər bizim məqsədlərlə üst-üstə düşmür.***

Bizim məqsədimiz müstəqillikdir, azadlıqdır, xalqın firavanlığıdır. Bəzi xarici dairələrin məqsədi isə tam başqadır - bizə diktə etmək, Azərbaycanı alətə çevirmək, Azərbaycan xalqının iradəsini qırmaq və ondan sonra Azərbaycan kimi qüdrətli ölkədən öz məqsədləri üçün istifadə etməkdir".

Azərbaycanda çirkin planlarını reallaşdırmaq istəyən anti-milli qüvvələr mühüm siyasi-ictimai kampaniyalar ərəfəsində dağıdıcı müxalifəti qızışdırmaqla öz niyyətlərinə çatmağa çalışırlar. Elə 26 sentyabr tarixində keçiriləcək referendum da bu baxımdan istisna təşkil etmədi. Xüsusilə də, seçkiöncəsi qanunvericilik çərçivəsində seçki prosesinə qatıla bilməyən "Milli Şura" və Müsavat partiyası bir sıra Qərb ölkələrinin səfirliklərinə təşrif buyurandan sonra mitinq keçirmək haqda qərar verməlləri də bunu bir daha təsdiq etdi.



Xaricdəki dairələrin siyasi direktivləri əsasında yaradılan "Milli Şura"nın sədri Cəmil Həsənlinin Strasburqa səfəri, ABŞ Konqresində, Haaqada Azərbaycanla bağlı müzakirələrin təşkili də anti-azərbaycançı qüvvələrin vəziyyəti gərginləşdirmək üçün yenidən hərəkətə keçdiyinin əyani sübutudur. Lakin 11 və 17-18 sentyabr mini aksiyaları erməni lobbisinin və anti-Azərbaycan dairələrin sifarişlərini aldıqları qrantlar hesabına canla-başla yerinə yetirməyə çalışan dağıdıcı müxalifətin rüsvayçı məğlubiyyətini bir daha ortaya qoydu.

Əslində, dağıdıcı müxalifət bundan əvvəl də ölkəmizdə müxtəlif beynəlxalq tədbirlərin, idman yarışlarının və seçkilərin keçirildiyi vaxtlarda erməni lobbisinin tapşırıqlarına uyğun olaraq qaragüruhçuluqla məşğul olublar. Onların konstitusiyamıza təklif edilən əlavə və dəyişikliklərlə əlaqədar keçiriləcək 26 sentyabr referendumu ilə bağlı yaydıqları cəfəngiyyat dolu "bəyanat"ları, mitinq-şouları da, məhz o cür xəyanətkar əməllərin təkrarı və davamı kimi qiymətləndirilməlidir.

Lakin etiraf etmək lazımdır ki, bu dəfə radikallar xəyanətkar və antimilli "proqramlarında" bir az dəyişiklik etdilər. Belə ki, onlar "Məhsul" stadionundakı anti-milli tədbirlərinə dəstək olmaq üçün AXCP sədri Ə.Kərimlinin çirkli pullar hesabına Avropanın ən bahalı təhsil ocaqlarında oxutdurduğu oğlu T.Kərimlini ABŞ Konqresinin Nümayəndələr Palatasının nəzdindəki Tomas Lantos adına İnsan Haqları Komissiyasının təşkil etdiyi, erməni lobbisinin 20 nəfərdən ibarət dəstəsinin iştirakı ilə keçirilən dinləmələrə göndərdilər. Atası Ə.Kərimlinin izi ilə addım-addım gedən T.Kərimli Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılmış separatçı rejimin rəhbəri, terrorist Bako Saakyanın oğlu, Amerika Erməni Milli Konqresinin ən fəal üzvlərindən olan Armen Saakyanla çiyin-çiyinə verərək, ölkəmizin əleyhinə şər-böhtan dolu informasiyalar səsləndirməklə öz çirkin simasını ortaya qoydu.

Ermənipərəst qüvvələrin boyunduruğunu boğazlarına keçirərək, onların cızdığı xəttin ətrafında dövrə vuran belə marginallar Bakıda böyük təmtəraqla "Eurovision-2012" Beynəlxalq Mahnı Müsabiqəsi, I Avropa Oyunları keçiriləndə də erməniləriə səs-səsə verərək, həyasızcasına Azərbaycan əleyhinə təbliğat aparırdılar. Ə.Kərimli və C.Həsənli kimilər şəxsi ambisiyaları, maddi qazancları, korporativ maraqları naminə təkcə erməni terrorçusu Bako Saakyanla, Serj Sarkisyanla deyil, eləcə də, ən dəhşətli terrorçu dəstələrlə-"İŞİD", "Əl-Qaidə" ilə ittifaqa girməyə hazır olduqlarını dəfələrlə nümayiş etdiriblər. Bir müddət bundan əvvəl "Milli Şura"nın "Məhsul" stadionundakı "İŞİD" bayrağı ilə bəzədilən mitinqi də dedikləri-mizi təkzibolunmaz faktlarla təsdiq edir.

Eyni zamanda, qonşu ölkəyə bağlılığı şübhə doğurmayan radikal "Müsəlman Birliyi"nin sədri Taleh Bağırov və İslam partiyasının sədri Mövsüm Səmədovun tərəfdarlarının 11 və 17 sentyabr mitinqlərinə qoşulmaları, Müsavatın mitinqində İ.Qəmbərin həmin şəxslərin və "ETTELAAT"-la əməkdaşlığa görə həbs olunmuş Səid Dadaşbəylinin ünvanına xüsusi jestlər etməsi sabitliyi pozmaq planında bəzi qonşu ölkələrin də yer aldığını sübut edir. Eləcə də, AXCP ilə "Gülən camaatı" arasında illərlə əvvəl yaranmış sıx əlaqələr bu gün də davam edir, "FETÖ" Türkiyədən sonra radikal müxalifət vasitəsilə Azərbaycanda da vəziyyəti nəzarətdən çıxarmaq niyyətindədir. ABŞ, Gülən şəbəkəsi və bəzi region ölkələri Azərbaycanda siyasi proseslərin normal axarını çərçivədən çıxarmaq, cəmiyyətdə süni gərginlik və qarşıdurma yaratmaq üçün birgə plan həyata keçirirlər.

Bir daha qeyd etmək lazımdır ki, dağıdıcı müxalifətin 17 sentyabr "şou"su antimilli xarakterli olduğundan fiaskoya uğradı. Ən əsası odur ki, öz çirkin əməlləri ilə xəyanətkar və üzüdönük İuda İskariotu belə geridə qoyan Ə.Kərimlinin və C.Həsənlinin, A.Hacılının, İ.Qəmbərin əsl simaları bir daha ortaya çıxdı. Dağıdıcılar tərəfindən təkcə sentyabr ayında keçirilmiş üç mitinqin fiaskoya uğraması, aksiyalara 300-500 iştirakçının qatılması antimilli qrupların və onların xaricdəki havadarlarının planlarını alt-üst etdi. Bu mitinqşoular, bir daha göstərdi ki, koordinasiya şəklində təşkil edilib, bir və ya bir neçə mərkəzdən idarə olunan anti-milli plan iflasa məhkumdur.

***"SƏS" Analitik Qrupu***

# İnsan hüquqları və prokuror nəzarəti

***Hüquqi dövlət quruculuğu prosesində qanunun aliliyini təmin edən vasitələrdən biri və dövlət nəzarətinin tərkib hissəsi olan prokuror nəzarətidir. Prokuror nəzarətini ölkənin prokuror orqanları həyata keçirir.***

Demokratik cəmiyyət quruculuğunda özünəməxsus yeri olan prokurorluq və prokurorlar haqqında ölkə Prezidenti İlham Əliyevin dəyərli mülahizələri vardır: “Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən, cəmiyyətimizin və dövlətimizin qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə, hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar”.

Nəzarət orqanı kimi prokurorluq ilk dəfə Qərbi Avropada - Fransada XIII əsrdə meydana gəlmişdir.

Bu orqan Fransa kralı IV Filippin 25 mart 1301-ci il tarixli Ordanansı ilə kral hakimiyyətinin maraqlarının mühafizəçisi kimi təsis edilib. Hələ XIII əsrdə məhkəmələrdə qanunları öyrənən və uzun paltarları ilə seçilən prokurorlar fəaliyyət göstərirdilər. Bu prokurorlar o vaxtlar iki qrupa bölünürdülər: məhkəmə proseslərində yazı işi ilə məşğul olan kral prokurorları və məhkəmə prosesində şifahi çıxış edən kral vəkilləri. Prokuror kralın sərəncamlarının yerinə yetirilməsinə gizli nəzarət şəxsi maraqları dövlətin maraqları ilə üst-üstə düşdüyündən, kralın prokuroru, eyni zamanda, dövlətin prokuroru olur. Beləliklə, general-prokuror bütün dövlət mexanizminin fəaliyyətinin düzgünlüyünü izləyən kralın gözləri sayılırdı. Fransanın general-prokurorlarının vəzifəsi hər yerdə kralın və kral hakimiyyətinin hüquqlarını müdafiə etmək idi. Fransada prokurorluq mərkəzi kral hakimiyyətinin maraqlarının gözlənilməsi zərurətindən yaradılmış və ona geniş nəzarət səlahiyyətləri verilmişdi. Prokuror nəzarətinin konkret formaları da, məhz mərkəzi hakimiyyətin yerlərdəki separatçı meyillərlə mübarizəsinin xarakteri ilə müəyyən olunurdu. Bu mübarizənin kəskin olduğu yerlərdə - Fransada və Rusiyada prokurorluq güclü geniş səlahiyyətlərə malik olan mərkəzləşdirilmiş nəzarət orqanı kimi meydana gəlmişdir. Mühafizəkarlığın güclü olduğu İngiltərədə Fransa tipli prokurorluğun yaradılmasına yol verilmədi. Belə ki, bu ölkədə xüsusi ittiham qaydaları hökm sürürdü.

İngiltərədə 1879-cu ildə Ümumi İttihamçılar İnstitutu təsis edilmişdir. Başında general-atternea (dövlət advokatı) duran bu siyasi təsisat direktordan və onun ərazi dairələrini əhatə edən 6 köməkçisindən ibarət idi. Sonralar İrlandiya və ABŞ-da da prokurorluq İngiltərədəki tipli- cinayət təqibi orqanı kimi yaradıldı və deməli, ona heç bir ümumi nəzarət funksiyası verilmədi. ABŞ-da ədliyyə naziri, eyni zamanda, general-atternea hesab edilir və onun bir sıra inzibati funksiyaları da (hakimlərin seçilməsi ilə əlaqədar) vardır. Beləliklə, bu ölkədə prokurorluq nəzarət orqanı deyil, idarəçilik orqanı hesab edilir. Ümumiyyətlə, müasir demokratik ölkələrdə prokurorluq cinayət təqibi funksiyalarını həyata keçirir. Deməli, bu orqan icra hakimiyyətinə aid edilir.

Rusiyada prokurorluq I Pyotrun vaxtında yaradıldı. I Pyotra qədər bu ölkədə ümumi ittihamı həyata keçirən orqan yox idi. I Pyotr nəzarət orqanı kimi fisqatlar, sonra isə fərmanların nəzarətçisi orqanını - general-revizorluğu yaratdı.

1722-ci il yanvarın 12-də I Pyotrun fərmanı ilə prokurorluq orqanı yaradıldı.

Prokurorluğun əsas vəzifəsi - qanunların yerinə yetirilməsinə nəzarət etmək, təşkili və fəaliyyət prinsipi isə yerli prokurorların baş prokurora tabeçiliyini nəzərdə tutan ciddi mərkəzləşdirmə idi. Beləliklə, Rusiyada prokurorluq, Fransada olduğu kimi, nəzarət orqanı kimi yaradıldı. Lakin Fransadan fərqli olaraq, Rusiyada bu orqanın məhkəmədə iştirakı nəzərdə tutulmurdu. Əvvəllər sovet prokurorluq sisteminin tərkib hissəsi olan və heç bir səlahiyyətləri olmayan Azərbaycan SSR prokurorluğu müasir müstəqillik və demokratiya şəraitində geniş nəzarətedici funksiyanı yerinə yetirir.

Azərbaycan Respublikası Prokurorluğunun səlahiyyətləri ölkə Konstitusiyasının 133-cü maddəsində öz əksini tapmışdır:

Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

Azərbaycan Respublikası Baş prokurorunun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlara rəhbərlik edən prokurorları, Naxçıvan Muxtar Respublikasının Prokurorunu Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

Ərazi və ixtisaslaşdırılmış prokurorları Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.

1 oktyabr 2011-ci ildə Azərbaycan Respublikası Prokurorluğunun peşə bayramı münasibətilə AzərTAc-ın məlumatında göstərilir ki, Azərbaycan Respublikası Prokurorluğu yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra və onun hakimiyyətdə olduğu 1993-2003-cü illər ərzində cəmiyyətdə öz layiqli yerini tutmağa nail olmuş, dövlətçiliyinizin sütunlarından hesab edilən mühüm dövlət təsisatlarından birinə çevrilmişdir. Müasir Azərbaycan Prokurorluğu 20 illik tarixi olan müstəqillik illərində Heydər Əliyevin dövlət quruculuğu siyasətinin uğurla reallaşdırılmasının nəticəsi olaraq bugünkü səviyyəyə çatmışdır.

Azərbaycan Prokurorluğunun demokratik məzmunda yeniləşməsi və fəaliyyətinin təkmilləşməsi işində Heydər Əliyevin dövlətçilik ideyaları bu gün də mühüm rol oynayır.

Heydər Əliyev ideyalarını öz dövlətçilik fəaliyyətinin təməl daşı kimi qəbul edən Prezident İlham Əliyev tərəfindən cinayətkarlığa iminal xarakterli bütün mənfi təzahürlərə qarşı mübarizənin yeni müstəviyə qaldırılması, bu sahədə işin təşkilinə məsul olan hüquq-mühafizə, xüsusi xidmət, ədliyyə və məhkəmə orqanları, o cümlədən, prokurorluğun fəaliyyətinin sivil məzmunda müasirləşdirilməsi və yeniləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi və əməkdaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün məqsədyönlü addımlar atılır. Bu gün dövlət başçısının dəstəyi ilə prokurorluqda yeni müstəvidə davam etdirilən müasir məzmunlu islahat tədbirlərinin nəticəsidir ki, zamanın ruhuna və yeni reallıqlara uyğun olaraq prokurorluq orqanlarının statusu, səlahiyyətləri və fəaliyyətində köklü dəyişikliklər baş vermişdir. Kadr siyasətində ciddi dönüş yaradılmaqla şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Xüsusi vurğulanmışdır ki, dövlətimizin başçısı İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi milli prokurorluq orqanlarının hərtərəfli müasirləşməsi və işinin tam yeni müstəvidə qurulması baxımından müstəsna əhəmiyyətə malik bir addım olmuşdur. Üç illik müddət ərzində yeni təkmilləşmə və inkişafın, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan bu proqram ölkənin hüquq sistemində prokurorluğun rolunun artırılması, digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmaqla, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bütün istiqamətlər üzrə işin səmərəliliyinin və əməkdaşların peşəkarlığının yüksəldilməsi, yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində konkret tədbirlərin həyata keçirilməsi ilə nəticələnmişdir.

Prokurorluq orqanları tərəfindən korrupsiyaya qarşı mübarizənin yeni müstəvidə daha səmərəli təşkilinin təmin edilməsinin prokurorluğun qarşısında duran əsas vəzifələrdən biri kimi müəyyənləşdirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin siyasi iradəsinə müvafiq surətdə, MDB məkanında, habelə, Azərbaycan Prokurorluğunun tarixində, ilk dəfə olaraq, prokurorluğa əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətlərinin verilməsi, işçilərinin say tərkibi və vəzifə maaşlarının əhəmiyyətli dərəcədə artırılması, ixtisaslaşmış antikorrupsiya qurumu kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin fəaliyyətinin daha səmərəli və çevik təşkili, korrupsiya cinayətlərinin qarşısının alınması, aşkar edilməsi və istintaqı ilə əlaqədar zəruri tədbirlərin görülməsi üçün hərtərəfli zəmin yaratmışdır.

Milli prokurorluğun peşə bayramı münasibətilə keçirilən tədbirdəki çıxışında Azərbaycan Respublikasının Baş Prokuroru Zakir Qaralov demişdir: “1 oktyabr 2011-ci ildə peşə bayramını qeyd edərkən, prokurorluğun kollektivinin gərgin əməyi nəticəsində, uğurlu nəticələr əldə olunmuş, Ulu Öndər Heydər Əliyevin prokurorluğun rəhbər heyəti ilə keçirdiyi 26 aprel 2000-ci il tarixli müşavirə ilə başlanmaqla prokurorluqda islahatlar prosesinin 2010-cu ilədək olan dövrdə davam edən ilkin mərhələsi yekunlaşmış, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli təkmilləşdirilməsi və müasirləşdirilməsi məqsədlərinə xidmət edən yeni bir mərhələnin həyata keçirilməsinə başlanmış, prokurorluğun hüquq sisteminin inkişafında, hüquqi dövlət quruculuğu prosesində iştirakında əhəmiyyətli irəliləyişlərə nail olunmuş, vətəndaş cəmiyyətində prokurorluğun rolunun artırılmasına, prokurorluq orqanlarının müasir dövrün tələblərinə və yüksək beynəlxalq standartlara uyğun fəaliyyətinin yeni keyfiyyət müstəvisinə yüksəldilməsinə zəmin yaradılmışdır. Azərbaycan Respublikası Prokurorluğunun kollektivi dövlət başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsində, prokurorluğun fəaliyyətinin müasir dövrün standartlarına uyğun yeni keyfiyyət səviyyəsində qurulması istiqamətində səylərini daha da artıraraq, qanun pozuntularına qarşı mübarizənin gücləndirilməsində, xalqına xidmətdə, insan hüquq və azadlıqlarının müdafiəsində, ictimai-siyasi sabitliyin, əmin-amanlığın və dövlətçiliyimizin qorunmasında yeni-yeni nailiyyətlər əldə etməyə çalışacaqdır.” Beləliklə, 20 illik müstəqil inkişaf yolunda olan Azərbaycan Respublikasında prokuror nəzarəti demokratik, sivil, hüquqi təsisat kimi inkişafa əngəl olan maneələri aradan qaldırmış və indi də bu funksiyanı əzmlə yerinə yetirməkdədir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Xalq referenduma "HƏ" dedi!

səs

Son səhifə 27 sentyabr

# Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı keçirilən referendum başa çatıb









***Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı sentyabrın 26-da keçirilən ümumxalq səsverməsi (referendum) yerli vaxtla saat 19-da başa çatıb. AZƏRTAC xəbər verir ki, səhər saat 8-də başlayan referendumda ilk saatlardan yüksək seçici fəallığı müşahidə edilib.***

Referendum 125 seçki dairəsi, 5627 seçki məntəqəsi üzrə keçirilib. Ölkə üzrə qeydə alınmış seçicilərin sayı 5 milyon 276 min 111 nəfər olub. Seçki məntəqələrinə 5 milyon 280 min 924 səsvermə bülleteni paylanılıb. Seçki dairələri dairə seçki komissiyalarının hamısı kompyuterləşdirilib və digər lazımi avadanlıqla təmin olunub. Məntəqələr gözlə görünməyən mürəkkəb və bu mürəkkəbi oxumaq üçün ultrabənövşəyi lampalar və s. zəruri materiallarla tam təchiz edilib.

Gün ərzində beş dəfə - saat 10-da, 12-də, 15-də, 17-də və 19-da səsvermədə fəallıqla bağlı məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi şəbəkəsi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa Mərkəzi Seçki Komissiyasına (MSK) ötürülərək internet səhifəsində yerləşdirilməklə ictimaiyyətə təqdim olunub.

Ümumxalq səsverməsi ilə əlaqədar 119 seçki dairəsi üzrə min seçki məntəqəsində onlayn rejimdə işləyən veb-kameralar quraşdırılıb. Referendumu izləmək üçün Avropa Şurası Parlament Assambleyasının, MDB Parlament Assambleyasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının müşahidə missiyaları, Böyük Britaniya, İtaliya, Türkiyə, Fransa, Avstraliya və digər dövlətlərin parlamentariləri, xarici ölkələrin ali seçki qurumlarının nümayəndə heyətləri və s. daxil olmaqla 18 beynəlxalq qurumdan 117 beynəlxalq müşahidəçi səsvermənin gedişini izləyib ki, bunlar da 33 ölkənin vətəndaşlarıdır. Səsvermə prosesinin müşahidəsinə öz təşəbbüsləri ilə və siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, referendum üzrə təşviqat qruplarının təşəbbüsü ilə akkreditasiyadan keçmiş 53 min 531 yerli müşahidəçi qatılıb. Səsvermə saat 19-da başa çatıb.

Referendum demokratik, şəffaf keçirilib, yüksək seçici fəallığı müşahidə olunub. Beynəlxalq müşahidəçilər səsvermə prosesinin yüksək səviyyədə təşkil olunduğunu, bütün məsələlərin qanun çərçivəsində tənzimləndiyini bildiriblər. Referendumun nəticələrinə təsir edə biləcək qanun pozuntusu müəyyən olunmayıb.

MSK qanunla nəzərdə tutulmuş qaydada səsverməprosesinin təşkilini təmin edib.

## ELAN

Azərbaycan Dövlət İqdisad Universiteti tərəfindən 2-ci kurs BİM fakültəsinin tələbəsi Cəbili Dilbər Azər qızına 2015-ci il tədris ilində verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**